

ELDAR ƏLİYEV

# SÖNMƏZ GÜNƏŞ

BEŞ CİLDDƏ

V

Az 2010
1510

Eldar Əliyev
(Sərtqaya)

888600

# SÖNMƏZ GÜNƏŞ

Poema

*Beş cilddə*

V cild

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"Elm və təhsil"
Bakı– 2010

898520
ARXİV

Ш6(2=А3)+Т3(2А)-8

*Məsləhətçi:* **Nizami Cəfərov**
***filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi***

**Redaktoru: Sadıq Şükürov**
*filologiya elmləri doktoru, professor*

**Əliyev Eldar Paşa oğlu.**
**«Sönməz Günəş». *(poema). V cild.***
**Bakı, «Elm və təhsil», - 2010, 228 səh.**

Poemada doğma Vətənə, müqəddəs yurd yerlərinə bağlılıq poetik duyum və səmimiyyətlə, ulu öndər Heydər Əliyevə olan inam və məhəbbət xüsusi poetik təsvir vasitələri ilə tərənnüm edilmişdir.

Müəllifin təsvir və tərənnüm etdiyi sahəyə bələdliyi əsərin qəhrəmanı olan dahi şəxsiyyətin obrazını parlaq şəkildə yarada bilməsindən daha aydın görünür.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ə $\frac{4702000000}{N098-2010}$ ***qrifli nəşr***

***© «Elm və təhsil», 2010***
***© Eldar Əliyev, 2010***



***Bacarsan hamının yükünü sən çək,***
***İnsana ən böyük şərəfdir əmək.***
***Sən də əldən düşüb yorulsan əgər,***
***Sənin də yükünü bütün el çəkər!***

***Nizami Gəncəvi***

## PROLOQ

Düşüncəm dərində,
özüm dayazda,
Xəzərin dərini
dizimə çatmaz!
Könlüm yaz fəslində,
özüm payızda,
Qışla yay birləşsə,
izimə çatmaz!

* * *

Durmadan bar verir
bahar ürəyim,
Hər xəstəyə dəva
tapar ürəyim,
Yazmasam, köksümdən
qopar ürəyim,
Min yazar birləşsə,
İzimə çatmaz!

* * *

Dağlar vurğunuyam,
qərarım – Qafqaz!
Qəhrəman Heydərim –
vüqarım – Qafqaz!
Zirvənə üz tutub
yollarım, Qafqaz,
Kimsə də bu yolda
izimə çatmaz!





## TANRIDAN RAZIYAM

Tanrıdan razıyam,
deyil amansız,
Yaradıbdı məni
sağlam, tamahsız!
Ruhi qida verib
qəlbimə böyük,
Yoxsa mən də xalqa
olardım bir yük!...
O mənə veribdi,
mən xalqa yazdım,
Bütün xəzinəmi
varağa yazdım!
Yazdım fəsil-fəsil,
qəlbimdən səstək,
Nəsildən-nəsilə
məndən mirastək!
Ölümə tamahsız
olduğum kimi
Həyatda hər şeyə
tamahsız oldum!
İçimdə yaşadım
olduğum kimi,
Üzdə qəm-kədərsiz,
mən ahsız oldum!

Çiçəklənən yurdum da,
yenilməz, mərd ordum da,
Sevinc bəxş edir,
sevinc,
Düşmənlər,
oturun dinc!
Yoxsa bu qələmimlə,
gözünüzü oyaram,
Qələm tutan əlimlə,
gönünüzü soyaram.
Torpaq mənim,
daş mənim,
Sağlam, işlək
baş mənim,
Ana vətən uğrunda
mən başımı qoyaram,
Düşməndə, yağıdasa
bir daşımı qoymaram!
Şad etmək üçün yurdda,
körpənin də könlünü,
Göylərə sovurmağa
düşmənlərin külünü,
Həmişə hazıram,
həmişə varam,
Mən odlar yurdluyam,
dönməz Eldaram!
Qələmim dönübdü
kəskin qılınca,
Bitməz mübarizəm
əsla, ölüncə





Qanımdan bir damla
düşsə torpağa,
Min Eldar cücərib
qalxar ayağa!
Xalqımın içində
qorxaq, maymağa
Ar olsun deyirəm,
nifrət deyirəm!
Torpağı uğrunda
şəhid olmağa
Yaşamaq deyirəm,
qeyrət deyirəm!
Önümdə yenilməz
öndərim də var,
Böyük qələbəm də,
zəfərim də var!.
Haqqa inanıram,
çünki haqlıyam,
Tükənməz sözləri
təmtəraqlıyam!
Müqəddəs yol açıb
önümdə Heydər!
Yolumu gözləyir
müqəddəs zəfər!
Sökülən dan yeri,
açılan səhər,
Xobəxtlik doludur,
sevinc doludur,
Bu yol xoşbəxtliyin
ən dinc yoludur!

Ölümüm də haqdır,
ölə də billəm,
Şam kimi əriyib
yana da billəm,
Ancaq kimliyimi
dana bilmərəm!
Bu müqəddəs yoldan
dönə bilmərəm!
Atatürk övladı,
Heydər oğluyam!
Canımla, qanımla
ona bağlıyam!
O elə saçıb ki,
sönməz nurunu,
Uğurlu yolları
çılçıraqlıyam!
Dənizə baxıram,
dəniz də yanır,
Çünki başım üstdə
Heydər dayanır!
Bu gün əvəz edir
öndəri İlham!
Yaradır təbiylə
özümdə inam!
Düşmənə yağdırır
kin, nifrətini,
Göstərir xalqına
sədaqətini!
Heydər vüqarlıdır,
Heydər cüssəli!





Kürəyində onun
müqəddəs əli.
Elə yetişib ki,
şöhrətli, şanlı,
Xalqına bağlanıb
ürəkli, canlı!
Elə bil Fərhaddır,
dağları yaran
Sanki Koroğludur,
şahları yoran!
Ulu Gəncə gülür
bir gəlişiylə,
Xariqə yaradır
hər bir işiylə.
Yurdda hər mahaldan
gəlir sədası,
Çox sadə, təmkinli,
yoxdur ədası!
Ulu Heydər oğlu,
mərd, yenilməz gənc
Hər kəsə ruh verir,
hər kəsə sevinc!

## BƏŞƏR TARİXİNDƏ YEGANƏ – TƏKDİR

*Bəşər tarixində müqəddəs adı!*
*Beyinlərə köçüb yaddaşı – yadı!*
*Əlimizdə qələm ha öyünsək də,*
*Biz gəldi-gedərik! Heydər – Dünyadı!*

**Müəllif**

Qəlbimin özünə
səyahətdəyəm,
Böyük maraqdayam,
mən heyrətdəyəm...
Qəlbimdə gəzirəm
okeanları,
Çox dəyərli keçir
ömrün anları.
Keçmişdən başladım
ilk səyahəti,
Kökümə varmaqdır
qəlbin niyyəti!
Böyük səyahətim
etdikcə davam,
Böyük vüsət alır
sözlərlə qovğam!
Sözü söz dalınca
elə düzürəm,
Elə bil bağbanam,
salxım üzürəm.





Özüm öz hökümümə
müntəzir kimi,
Ürək boşalmağa
tələsir kimi,
Sözü söz dalınca
camla göndərir,
Sonsuz sətirlərə
camla əndərir,
Elə bənd qururam,
sınmaz, uçulmaz,
Sözlə qurulsa da,
sözlə ölçülməz!
Eldar heç bu yoldan
dönməz, kiçilməz,
İşıq sürətliyəm,
heç vaxt keçilməz!
Günəşin özündən
alıb qaynağı,
Şöhrətim gəzəcək
hər bir oylağı.
Cahanın diqqətin
çəkib sözümlə,
Heyran edəcəyəm
yurdda izimlə!
Ulu Heydər ömrü
yenilməz, mətin!
Böyük qaynağıdır
yurdda şöhrətin!
Əzəl gündən
dərsli oldum özündən,

Keçmək üçün
cığırından, izindən,
Dürlü-dürlü
sözlərindən alıb təb,
Kök salıbdı
ürəyimdə bir mətləb…
Yaymaq üçün
dünyalara adını,
Xalqımın ən məğrur
mərd övladını
Şeir – nəzmlə
tərənnümə qalxmışam,
Tarixime
vərəq-vərəq baxmışam.
Kimsə yoxdur
cərgəsində, önündə,
Kömək duran
xalqının dar günündə.
Tək dühadır!
Dahilərdən ucadır!
Hər cığırı,
bir pəncərə – bacadır!
Xoşbətliyə
açılır bu bacalar,
Ordan baxan
hər kəs qalxar, ucalar!
Kimsə verə bilməz
onun yerini,
Ulu Heydər!
Ümmanların dərini!





Torpağın hər daşında
ayağının nuru var,
Ürəklərin başında
onun ölməz yeri var!
Başım üstə,
həm önümdə əvəzsiz,
Onu dansam,
daş olram nəfəssiz!
Bəşər tarixində
yeganə, təkdir!
Hər zaman da öndə
o gedəcəkdir!

## BELƏ SEVİNC DUYMAMIŞDIM HƏLƏ MƏN

***Bilir bu hikməti hər arif kişi,***
***Pis nəticə verməz yaxşının işi!***

**Nizami Gəncəvi**

Özü seçib
arxasında İlhamı
Ki, sınmasın
xalqın böyük inamı!
Xalqım sevir,
mən sevirəm
sən də sev,
Hər bir zaman
taleyindən
öndə sev!
O elə bir
taledir ki, Tanrıdan,
Azad olmaq üçün
hər bir ağrıdan,
Tanrı özü millətimə
pay verib,
Ulu Heydər arxasında
hay verib!
Dəmir əldir,
polad bilək, saf ürək!





Lazım gəlsə,
yolunda ölmək gərək!
Taleyimiz düz
seçibdi yolunu!
Seçib, çəkib önə
xalq öz oğlunu,
Davam etmək üçün
Heydər yolunu!
Böyük qardaş,
böyük öndər seçilib,
Yağı düşmən
bundan, sınıb, kiçilib!
Söylə varmı
bundan böyük bir uğur,
Sevinc dolu
yurdda hər yol, hər cığır!
Canlanma var
yurdumun hər küncündə,
Üzü gülür
qocanın da, gəncin də!
Hər körpənin
əlində gül dəstəsi,
Yoxdur yurdun
ağrıyanı, xəstəsi,
Hara baxsam,
nur görürəm, nur-aləm!
Belə sevinc
duymamışdım mən hələm!
Ha sevinsəm,
tükənməzdir sevincim!

Tirənə də
yüklənməzdir sevincim!!
Yolum açıq –
sarmaşıqsız, alaqsız,
Bar ağacım,
qəlbdə peyvənd, calaqsız!
Mən barını dərim,
sən də bəndə düz,
Kitab – kitab,
mən göndərim, sən də düz
Ləmələrə –
Sərtqayadan mirastək,
Tanrı verib,
İlhamı bir muraztək!
Vur, qardaşım,
külüngünü vətəndə,
Qoy yetişsin
ömrün sonu vətəndə!
Çiçəklənən
Odlar yurdu – Vətən də,
İlham ilə
dinəcək hər dinəndə!





## ZAMAN ÖZÜ MƏNİ QOY TƏFTİŞ ETSİN

***Əzəl gündən qiymətli,***
***bir incidir doğru söz,***
***Acısıyla könüllər***
***sevincidir– doğru söz!***
***Doğru sözə bağla ki,***
***öz qüdrətin həmişə,***
***Qoy qüdrətdən güc alsın,***
***söz qüdrətin həmişə!***

**Nizami Gəncəvi**

Düşünsəm içimdən
çəkilmir yenə,
İçimi əlimlə
sökdürür mənə.
Söz-söz sökülürəm
söz-söz sökürəm,
Yenə mülk qururam,
saray tikirəm,
Çəkdiyim harayla
öz söz mülkümdə,
Ölməz ad qoyacaq
öz soy – kökümdə!
Qranit-qranit
bitib cahanda,
Döğma Odlar yurdum
Azərbaycanda

88860

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Yeni bir dünyanın
açıb qapısın,
Tutub ətəyindən
Ağrının, Qarsın,
Elə silkələmək
istəyirəm ki,
Elə qaya-qaya
yağsın bəndlərə,
İllərin harayın
yığsın bəndlərə!
Açsın qoy sirrini
bu dağlar mənə,
Ordan keçən
yollar, yolaqlar mənə,
Külü daşa dönmüş
ocaqlar mənə
Açsın tarixini
qoy fəsil-fəsil,
Mən yazım, oxusun
gələcək nəsil!
Boyu çinar-çinar
düşüncələrim,
Misra, bəndə köçən
axşam – səhərim,
Yeni bar gətirir,
yeni bar verir,
Qələmim qəlbimdən
yeni bar dərir!
Qəlbim qələm-qələm,
söz ələm-ələm,





Elə ələnib ki
tükənmir hələm.
Elə yüklənmişəm
dürlü sözlərlə
Ruhum vücudumla
gövhərəm, lələm!
Tarixim doludur
sirli izlərlə,
Düşmənin qəddini
qırıb yüzlərlə,
Xain ürəkləri
yarıb bizlərlə,
Dik baxıb gözünə
düşmənin hırzlı,
Hamısın mum edib,
oğullu, qızlı!
Yığıb koma-koma
misraya, bəndə,
Böyük miras kimi
böyük kəməndə
Atım sapand kimi
tarixə bir baş,
Əzəli bilinməz
tarixə – çağdaş,
Ulü Heydər adlı
qızılı tarix,
Eldar qələmiylə
yazılı tarix!
Qoy şöhrət gətirsin
xalqım, elimə!

Qoy qüvvət gətirsin
dizim, belimə!
Böyük poeziyam,
şirin dilimə,
Qoy tarixin özü
pərəstiş etsin!
Zaman özü məni
qoy təftiş etsin!...
Müfəttiş təftişi
nədir, nə, axı?
Zamanın tərsinə
çevrilən çarxı!
Elə ki, o, bir də
geri dönəcək,
Müfəttiş gözlərdə
həyat sönəcək!..
Zaman təftişindən
çıxanlar isə,
Böyük örnək olub
yaxşıya, pisə,
Zamanın özüylə
birgə gedəcək!
Zaman seçib onu
tarix edəcək!
Tariximdə ölməz
dahilər kimi,
Tarixin özündə
tarixlər kimi,
Yaşayacaq, zaman
seçsə hər kimi!





Odur ki, qıymadan
zamana, ana,
Hesabat yazıram
böyük zamana!
Mən zamana güdük,
zaman da mana,
Mən ona hesabat,
zaman Cahana,
Ömrümü həsr edib
bu imtahana,
Yolumda sədd olan
min bir nadana
Çox sərrastca vurub
qələmi zərbə,
Qələbə raportu
yazdım bu hərbə!
Yazdım ki, qoy Cahan
bilsin, eşitsin!
Dünya tarixinə
hesabat üçün,
Zaman özü məni
qoy təftiş etsin!
Dünya tarixinə
zəmanət üçün,
Zaman özü məni
qoy təftiş etsin!...

## «BİZİM HAMIMIZIN BİR VƏTƏN VAR! - BU AZƏRBAYCANDIR!,,,» (2003-cü il)

*Qüvvət elmdədir,başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz!*

***Nizami Gəncəvi***

Axı nə edəcək
zərrələr Pikə,
Ha lovğalansa da,
başından yekə!
Mənimsə müqəddəs
söz aləmində,
Əbədi dünyanın
öz aləmində,
Başımın üstündə
Sönməz Günəşim,
Sönməz olacaqdır
odum, atəşim!
İnsanlıq sadəlik,
ucalıq – ümdə!
Körpəlik, uşalıq,
qocalıq – ümdə!
Gəncliklə orta yaş
qaynar həyatdır,
Duymaqla duyulmaq,
o, baxtabaxtdır!
Düşübdü bəxtimə
duymaq, duyulmaq,





Qismətimdə yoxdur
sınmaq, əyilmək!
Sındırmaq istəkli
olmasam da mən,
Kərəni sındırmaq
gələr əlimdən!
Burada nə var ki,
anılmaz, çətin,
Elmsiz adamlar
olammaz mətin!
Arxamca sürünən
qullar, qulunlar,
Kölgə qılınclayan
buqələmunlar
Elə kölgədə də
çürüyəcəklər,
Kölgəmdə yox olub,
əriyəcəklər!
Çoxları buz qoydu
özünə başdan,
Möhkəmlik istədi
qayadan, daşdan,
Ancaq ki, mum kimi
əridi getdi,
Kölgətək doğuldu,
kölgədə itdi!
Gərəkdir anadan
doğulmaq möhkəm,
Yaşamaq ömrünü
sarsılmaz - ötkəm,

Hər kəsə pay deyil,
kökdən gələndir,
Tanrının etdiyi
ərkdən gələndir!

* * *

Akademik gördüm
soz alıb - satan,
Professor gördüm,
söz altda yatan,
Bir ad da tapmıram,
deyəm bunlara,
Alimə mən necə
deyim – şarlatan?!..

* * *

Pul özün asıb tardan,
Varlı çıxmır bazardan!
Pullular pulsuzluqdan,
Kasıb ölür azardan!

* * *

Nazir bəy libasında,
Gəzir bəy libasında,
Elə qurşanıb pula,
Unudub babasın da!





* * *

Nadir bəy libasında,
Gedir bəy libasında!
Elə itirib özün,
Unudub əbasın da!

* * *

Yayda gəldi, qışda getdi,
Yaş gəlmişdi, yaş da getdi,
Necə başıboş gəlmişdi,
Elə başıboş da getdt!

* * *

Bağbana yardımçı
olmasa belə,
Barından dadarlar
siçanlar səylə!
Dollar gəzdirsə də
indi şələylə,
Bu mənfur "bəylərin"
siçovul "bəylə"
Axı fərqi nədir
oxucum, soylə? ..
Siçovul "bəyliyi"
anbarda ətə,
Mənfur "bəylər"inki
pula, rüşvətə
Bağlısa sonuna
nə qalıb axı?...

Yaddan çıxaranlar
axşam, sabahı,
Tanrının özündən
alacaq zərbə!
Heç ehtiyac yoxdur,
onlarla hərbə!
Xalq Heydər yolunda-
tale yolunda,
Onun hər arzusu,
hər amalında.
İnsanlığın özü
kök salıb gedir,
Ondan yayınanlar
tük salıb gedir!
Biz ki kök salırıq
bu ulu yurdda
Sən oxucu kimi,
mən yazan kimi.
Tanrı verdiyi
bol ruzulu yurdda
İnan, məhv olarıq
yol azan kimi!..
Əldən itməməkçün
kələfin ucu,
Mən yazıçı kimi,
sən də oxucu,
Gərək bir nöqtəyə
vuraq çəkici!
Ki, Heydər yolundan
azanlar bizi,





İnsanlığıa quyu
qazanlar bizi
Aldada bilməsin,
bükə bilməsin,
Çirkin oyunlara
çəkə bilməsin!
Öndə bircə yol var
ədalət dolu,
Açıb onu Heydər
Əlirza oğlu!
Namus, qeyrət dolu,
sədaqət dolu,
Nər insanoğluna
böyüklük verər,
Xoşbətlik, sağlamlıq
çeviklik verər!...

* * *

Qəlbim dolu
yolum ulu, gedirəm,
Xalq qoluna
salıb qolu, gedirəm!
Haylı-küylü,
qalmaqallı gedirəm,
İmkanım varkən,
macallı gedirəm!
Qoy sürünsün
kölgəm ilə kölgələr,
Yormaz məni
sıldırımlar, döngələr,

Yerişini bilənlərə
ölüm yox!
Özü yeriyib gələnlərə
ölüm yox!!
Yerişini bilməyənə
ölüm!...Yo...ox!
Naqislərə heç çatmasın
ölüm!.. Yox!!..
Ölüm də insana
yaraşsın gərək!
İnsantək yaşamaq,
insantək ölmək,
Bu da haqlı paydır,
Tanrı veribdi!
Kim ki, insan qolun
daldan gəribdi,
Ona gərək deyil,
bu haqqlı ölüm,
Ona gərək ancaq,
zülüm! və zülüm!!

* * *

O, belə düşündü,
o, belə dedi,
Doğma vətən oldu
məsləki, andı!
«Bizim hamımızın
bir vətəni var –
Muqəddəs yurdumuz
Azərbaycandı!!»





## ELƏ BİL İÇİMDƏ BİR ÖZÜM DƏ VAR

Bir ürək döyünmür
içimdə sanki,
Elə bil içimdə
bir özüm də var!
Dünyanın özü də
içimdə sanki,
Onu gəzdirməyə
tab, dözüm də var!
Mənə tab da verən,
dözüm də verən
İlahi bir qüvvə
girib qəlbimə!
Bütün ləl – gövhəri
sərib qəlbimə,
Özü yetişdirir,
özü göndərir,
Qələmi də özü
verib əlimə,
Sözləri də camla
özü göndərir,
Sonsuz sətirlərə
özü əndərir!
Özü danışdırır,
özü dindirir,
Özü alışdırır,
özü yandırır!

Özü də bir zaman
söndürəcəkkən,
Ağılsızdır ondan
hesabat çəkən!
Hesabatı hər kəs
özündən çəksə,
Öz qəlbində əkib,
qəlbindən söksə,
Heç zaman tükənməz
qəlbinin sözü,
Özü də seçilər
dünyanın gözü!
Dünyanın da gözü
yurddadır, yurdda!
Dost sevincdə, düşmən –
dərddədir, dərddə!
Qanan Heydər deyir, -
İlham söyləyir!
«Allah özün saxla!»
Dua eyləyir!!





## DÖYÜN EY ÜRƏYİM, DÖYÜN VƏ TABLA

*Məsləkdən savayı yoxdur qazancın,*
*Əgər varsa məsləkin, demək çoxdur qazancın!*

**Nizami Gəncəvi**

Döyün, ey ürəyim,
döyün və tabla
Səndə özək salmış
dözüm və tabla
İlləri yoracaq
qələmim hələ!
Heydərimdən alıb
böyük örnəyi,
Eldar da olacaq
xalqın gərəyi
Tələsmə ürəyim,
hövsələ elə!
Hələ öndə böyük
zaman dayanır,
Tanrı arxamızda
yaman dayanır!

* * *

Ürək dilə gəldi
sinəmdə sanki,
Keçirdim qəlbimdə
elə bir an ki,
Ürəyim özümlə
danışır kimi

Düşüncəm bir anda
sökdü içimi!
İçimdə söz axdı
qara qan dolu,
Elə bil gözümdə
bitdi qan gölü,
İçimdə alışdım,
İçimdə yandım.
Dünyanın dərdlərin
içimdə sandım!
Ölkəmə səs düşdü
tək bircə dəmdə
Dərd damla bağladı
bir an didəmdə!
Elə üşüdüm ki,
titrətmə tutdum.
Elə bil özümü
bir an unutdum,
Dedilər, büdrəyib
yıxıldı Heydər!
Elə bil qəlbimdə
qırıldı tellər!
Yol saldı qəlbimdən
amansız sellər...
Bir qədər özümə
verdim təsəlli,
Ki, öyrənim deyə:
bunu əməlli.
Ürəyim narahat
idi əvvəldən,
Xəbər gözləyirdim
sanki Heydərdən...





Ancaq kimə deyim,
kimə söyləyim?...
Özüm də bilmirdim
ki, mən neyləyim!
Gəncədə sükutluq,
xalqı narahat,
Ürəyim özüdə
qaldı narahat!...
Mərkəzdən ta müsbət
xəbər gəlincə,
Böyük narahatlıq
yaşadı Gəncə!
Nəhayət ki, xəbər
ürəkaçandı,
Sevincim qol açıb
sanki uçandı.

* * *

Yenə müalicə,
yenə tədavü ...
Qara qüvvələrin
mənfur girəvi,
Ayırdı yenə
Heydəri yurddan,
Ürəyim az qaldı
çatlasın dərddən!
Yenə Türküyəyə
uçdu uçağım,
Ona uğur dedi
dənizim, dağım!
Gülhanəyə getdi
uçaqla birbaş,

Gözümdən qəlbimə
damla-damla yaş
Damladı aramsız
leysana döndü!
Ürəyimin özü
qana büründü!
Misra yağış-yağış,
söz yağış-yağış;
Zəbt etdi qəlbimi
sanki boran, qış!!
Vücudum buz dolu
qəlbim söz dolu,
Qəlbimin özündən
saldı düz yolu!
Yağı düşmənlərin
uğursuz yolu,
Yenə də uğursuz
qalacaq, deyə,
Heydər sağalacaq
gələcək, deyə,
İlahi səs gəldi
qulaqlarıma,
Bahar gəldi qəlbdə
yaylaqlarıma,
Qəlbimin dağı da,
düzü də güldü,
Xalqım – millətimin
üzü də güldü!





## ULU HEYDƏRİMİN UĞURLU YOLU

Bir yola düşmüşəm,
müqəddəs – ulu
Ulu Heydərimin
uğulu yolu!
Təkcə mən getmirəm,
Xalq – millət gedir!
Kimin ki qəlbində
var qeyrət, gedir!
Varı əziyyətdir,
dövləti qüdrət,
Bu yol tələb edir
böyük cəsarət,
Özünə inamı
olmayan bir kəs
Bu yolla sonacan
yeriyə bilməz!
Bu yolda qoyulub
elə bir üsul,
Gedəmməz bu yolla
Nökər – naib, qul!
Hər döşünə döyən
qız, istər oğul
Bu yola düşməsi
əfsanə, nağıl!
Düşür ürəyimdən
söz damla-damla,

Sarılıb qələmə,
böyük inamla,
Tükənmək bilməyən
təblə, İlhamla
Bu yolu tərənnüm
etmək üçün mən,
Müqəddəs zəfərlə
yetmək üçün mən
Tanrının özündən
umdum imdadı,
Ulu Nizamini –
böyük ustadı!
Köməyə çağırdım,
ruh versin, dedim!
İstədim ki, onun
yoluyla gedim.
Tanrı da pay verdi,
ulu ustad da!
Qəlbimdə kök salan
elm, savad da,
Anbaan qaynadı
anbaan daşdı,
Sətir leysan oldu,
sanki yağışdı.
Hər anı uğulu,
hər anı nurlu,
Ulu Heydər yolu
yollu, cığırlı,
Sözlər sinəmboyu
çallı, çağırlı,





Elə şənlik qurdu,
müqəddəs, ümdə,
Özümə mat qaldım,
İnan özüm də!
Axı doğrudanmı,
bu yazan mənəm?
Nahaqdan Koroğlu
deməyib nənəm.
Qələm məni çəkir
öz meydanına,
Hünər meydanına,
söz meydanına,
Sinəm özü dönüb
söz meydanına.
Hər sözü qoymağa
öz meydanına,
Heç hövsələm çatmır,
mən tələsirəm,
Hər sözün üstündə
söz-söz əsirəm!
Qələmi əimə
aldığım zaman,
Qaçır sətirlərlə
qələm durmadan,
Nə söyləsəm, yazır
məni yormadan.
Mənə mən deməyin,
öyrənən deyin,
Öyrənə-öyrənə
öyrədən deyin!

Ki, mən cuşa gəlim,
leysanım artsın,
Xalqa miras qalan
dastanım artsın!
Qoy bu ulu yoldan
yazım doyunca!
Hər anın bəndlərə
düzüm doyunca!
Bu böyük ümmana
baş vurduqca mən
Sözlər öz-özünə
qopur sinəmdən!
Ha yazsam da artır
borcum durmadan,
Elə bil bezmişəm
dinc oturmaqdan!
Yazdıqca dincəlir,
rahatlaşıram,
Böyük uğurlarla
qabaqlaşıram!
Uçuram səmalar
əngiliyində,
Böyük düşüncələr
dərinliyində!
Qəlbimə ruh gəlir,
qoluma qüvvət,
Böyük poeziya,
bu qaynar vüsət,
Elə səsləyir ki,
məni dalınca,





Qurmağa sözlərdən
bir Ərk, Əlincə!
Orda yaşamağa
mütləq ölüncə!
Qəlbin istəyidir,
qəlbin tələbi.
Ruhumla seçmişəm
mən bu mətləbi.
Heydər amalları,
Heydər məktəbi,
Xalqa qüdrət verən
sarsılmaz varlıq!
Onu anlamamaq
olar avamlıq!
Elə bil ruhuma,
qanıma keçib,
Qızıl heykəl kimi
qəlbimə köçüb,
Mənəviyyat dolu
bir saray qurub,
Onun nəşəsindən
söz haray vurub,
Bütün dərdlərimi
göyə sovurub,
Sevincə bələnib
çıxmağındadı!
Söz-söz sətirlərə
yağmağındadı!
Bu şair qəlbimin
daşqını-seli,

Gəncliyin özündən
Heydər təməlli,
Yaşadım ömrümü
böyük amallı!
Düşünüb – daşınsa
əgər əməlli,
Tək ona borcludur,
tək ona hər kəs!
Heydərlə kimsə bir
araya gəlməz!
O elə tutb ki,
meydan qəlbimdə,
Olub sözlə dolu
meydan qəlbim də!
Ha yazsam, tükənməz
sözüm söhbətim,
Heydər rəşadətim,
Heydər qeyrətim!
İnsanlıq simvolum,
Ürəyim, canım,
Heç zaman bölünməz
Azərbaycanım,
Böyük həqiqətdir!
Mən necə danım?!





## AYAĞA DUR! – AZƏRBAYCAN

«Ayağa dur! –
Azərbaycan!»
Sən bir cansan,
Heydər bir can!
Düz yolunla
axıracan,
Gedəcəyəm
verincə can.
Bu yol sənin
düz yolundur,
Oğlun salıb,
öz yolundur!
Sarsıdammaz
yağı düşmən,
Bu yoldayam
ölüncə mən!
Ürəyimdə
sönməz atəş,
Xoşbəxtliyə
doğru birbaş

Yaza-yaza,
yavaş-yavaş,
Səhv eyləməz
ağıllı baş!

Ürək dolu
nağıllı baş!
Bu dastanı
yavaş-yavaş
Ona yazdım,
ona, birbaş!
Sana yazdım,
sana, bir baş!
Azərbaycan,
Ulu Heydər,
Ömrü
zəfər dolu, Heydər!
Oğul verdi özü boyda
sənə öndər!
Oğul verdi özü boyda
mənə öndər!
Kim deyər ki,
izləməyir
məni zəfər?!
Kim deyir ki,
gözləməyir
məni zəfər?!
Qalib çıxdım mən
qalib də olacağam,
Tarixində mən
qalib də qalacağam!
Zəfər mənim,
hünər mənim,
İlham mənim,
Heydər mənim,





Heydər, İlham,
Heydər mənim!
Sən vermisən
oğul, oğul,
Bitmir dastan,
bitmir nağıl,
Ha yazsam da
bu ocaqdan!
Mən qorxmuram
bundan sonra
olacaqdan,
Hər nə olsa,
hünər dolu,
zəfər dolu olacaqdır.
Əbədidir,
yolum ulu,
Heydər yolu olacaqdır.
Heydər yolu,
İlham yolu,
Heydər yolu olacaqdır.
Bu irs yurdda
böyük tarix salacaqdır,
Bir irs yurdda
qızıl tarix olacaqdır,
Millətimin tarixində
qızıl xətlə qalacaqdır!

## SEÇKİYƏ GEDİRƏM ƏLİMDƏ QƏLƏM

*15.10.2003.*
**GƏNCƏ**

Seçkiyə gedirəm
əlimdə qələm,
İstərəm, düşmənin
gözünü dələm.
Xalqın tale yolu
böyük seçimdə,
Saxlamamaq üçün
bir yük içimdə,
Ayıq olmalıyam
mən bu seçimdə!
Azad xalqım da var,
dövlətim də var,
Dünyayla bir şanım,
şöhrətim də var,
Onu qorumağa
qeyrətim də var!
Xalqım özü seçib
önündə öndər,
Xalqım özü seçib
özünə rəhbər!
Söhbətim də Heydər,
sözüm də Heydər,
Dönüb Tur dağına
gözümdə Heydər!!





Çünki xaqımın dar
günündə Heydər,
Sonsuz çətinliklər
önündə Heydər
Qürurla dayandı,
qürurla durdu,
O, öz dövlətini
uğurla qurdu!
Dünyanı dolaşdı
şöhrəti, şanı,
Tanıtdı dünyaya
Azərbaycanı!
Düşmənləri qoydu
sıxıntıda, O!
Xalqını qoymadı
üzüntüdə, O!
Dünyaya Günəştək
doğacaq, dedi,
Dövlətim ucalıb
qalxacaq, dedi!
Heydər – Azərbaycan –
olubdur bir can
Onların önündə
nədir ki, bir can?!
Canımı qoymağa
hazıram hər an!
Təki xoşbəxt olsun
can Azərbaycan!
Mərd Heydər qurduğu
dövlətim, yurdum,

Onun yaratdığı
müsəlləh ordum
Varımdır, nə dərdim,
nə sərim axı,
Yaşayıb görməyi
gözəl sabahı
De, kim ala bilər,
əlimdən, necə?
Axı niyə qorxum
ölümdən, necə?!
Şərəfli ölümə
hər vaxt hazıram,
Ona çatmaq üçün
bivaxt yazıram!
Yazıram oxusun
xalqım, millətim,
Xalqa miras qalan
şanım, şöhrətim,
Qoy öz qələmimlə
yetişsin, çatsın,
Etməyə tərənnüm
millət atasın!
Böyük poeziyam,
Sönməz Günəştək
Mənim özümü də
sönməz edəcək!
Xalq – Heydər qoyduğu
yolla gedəcək!
Bu yol dövlətimi
pullu edəcək!





Xalqımı uğurlu,
nurlu edəcək!
Yersizi də dartıb
yerli edəcək,
Hamı bir cığırla
yolla gedəcək!
Ordan alim, qırçı,
molla gedəcək,
Təmiz ürək, açıq
əllə gedəcək,
Gələcəyə xoş
təməllə gedəcək!

* * *

Seçkiyə gedirəm,
əlimdə qələm,
İstərəm zamanın
qəlbini dələm,
Yolumu, izimi
həkk etmək üçün,
Dərdimi, sərimi
əritmək üçün,
Bu böyük seçimə
ləngiyə bilməm,
Düşmən qarşısında
əriyə bilməm.
Peşəmdir əritmək,
yandırmaq, yaxmaq,
Qoymam önə keçə
savadsız, axmaq!

Mənim bir ürəyim,
bir diləyim var,
Mənim bir öndərim,
bir gərəyim var!
Mənim bir ümidim,
bir gerçəyim var,
Xalqıma bir kəlmə
deyəcəyim var: -
Ulu Heydər yolu
müqəddəs, həlim,
O yolu tutmağa
Heydər təməllim
Var ikən mən kimə
edim etibar?..
İlhamın da Heydər
dəyanəti var!
O böyük qardaşım,
gözüm, bəbəyim,
Mən ona etibar
necə etməyim?!
Ulu Heydər yolu
onun yoludur!
İlham Heydəroğlu
xalqın oğludur!
İllərin özüylə
yetişib gəlib,
Zaman sınağından,
ötüşüb gəlib…
Ona meydan vermək
zamanı yetib!





Daha sadəlövhlük
dövranı ötüb!
Xalqım ayıq – sayıq,
seçimi sərrast,
Tanrı İlhamı da
özü salıb rast
Ki, Heydər yoluna
davamçı olsun,
O da Heydər kimi
savabçı olsun!
Xalqımın səsinə
qatıldım mən də,
Sinədə ürək də,
əldə qələm də!
İlham tək seçildi
eldə, aləm də!

## QAYIDIŞ

Düşüncəm qərq etdi
mәni sellərə,
Qayıdış elədim
keçən illərə...
Böyük çaşqınlığa
olarkən düçar,
Bəylər meydanlarda
qalarkən naçar,
Gəlməzsə Heydərim
dəniz də qaçar,
Buludlar Bakının
üstünə uçar,
Güllələr millətin
köksünə saçar,
Kürsülər "bəylərin"
altından qaçar,
Zülmət qaranlığa
qərq olardılar,
Sevinc duysunlar ki,
hələ vardırlar!

* * *

Müqəddəs torpaqdan
Bakıya dönən,
Səmadan qartaltək
Bakıya enən
Uçaqdan qəhrəman
Heydərim endi.





Xalqı sevindirdi,
düşmənlər yandı!
Xalqın dar günündə
öndə dayandı,
Millətim oyandı,
xalqım oyandı,
Böyük qaranlıqdan
çıxdım işığa!
Baxdım ağsaqqala,
baxdım uşağa,
Uşaqdan böyüyə
hamı sevinir,
Hamı ancaq ona,
ona güvənir,
Necə güvənməsin,
güvənci odur,
Xalqımın yeganə
söykənci odur!
Ölkəyə səs düşdü:
qayıtdı, deyə,
Yatmış vicdanları
oyatdı, deyə!
İlhamla döyünür
ürəyim yenə,
Sevindim ömrümün
mən bu dəminə!
Qafqaza söykəndi
kürəyim yenə!
Beləcə qurtulduq
qandan – qadadan,

Xalqımın imdadı
çatdı Xudadan!
Yurdumun günəşi
parladı yenə,
Xalqımın nəşəsi
gurladı yenə!
Qayıtdım özümə
qayıdış etdim,
Sönməz Günəşimə
min alqış etdim!
Elə bil sönmüşdüm
təzədən bitdim,
Yox oldu önümdən,
itdi kölgələr,
Yurduma diqqətin
saldı ölkələr!
Yurdda vilayətlər,
bütün bölgələr!
Gəncə bölgəsində
tökülən qanlar,
Göylərə yüksələn
ahlar, fəğanlar,
Böyük sevinclərə
verdi yerini,
Çıxaranı yaddan
ölü-dirini,
Qara kölgələri
əritdi Günəş,
Yurduma can verdi,
diriltdi Günəş!





Mühit də dəyişdi,
ab hava da,
Oyunbaz da itdi,
"dava-dava" da!
Qəlblərdə ruh artdı,
qollarda qüvvət,
Tükəndi küçələr,
yollarda zillət!
Gədələr etsə də
məclisdə qeybət,
Heydərim qəlblərdə
yaratdı heyrət,
Mat qoydu dünyanı
ondakı qüdrət!
Çaxnaşmada qaldı
qullar, qulunlar,
Çaşqınlıq yaradan
iblis, məlunlar,
Elə çaxnaşmada
qaldı da itdi,
Sərsəmlər payını
aldı da itdi!
Seçdi Milli məclis
sədr Heydəri!
Göylərə yüksəltdi
səbr Heydəri!
Təmkinli, dözümlü
bu məğrur insan,
Hər vaxt dönməz qaldı
məğrurluğundan!

Gəldi Gəncənin də
görüşünə, O!
Sinə gərdi zaman
gərdişinə, O,
Gərdi qəhrəmantək,
yenilməz, mətin,
Bilməklə yerini
hər bir söhbətin,
Qazandı xalqının
etimadını,
Qaldırdı göylərə
xalqın adını.
Çoxları məclisdə
salsa da qovğa,
Yersiz atılsa da
yola, yolağa,
Yenə təmkinində
qaldı Heydərim,
Təmkinlə zəfərin
çaldı Heydərim!
Yaşadı, yaşadı,
ucaltdı xalqı,
Çəkdi tarixinə,
qocaltdı xalqı!
Ölməz Dədə Qorqud
dövrünə döndü,
Millətim tükənməz
şövqünə döndü!
Anlatdı cahana
xalqın tarixin,





Açdı qapısını
böyük arxivin!
Böyük tədbirlərlə
böyük əməllər,
Böyük məharətlə
sağlam təməllər.
Qayıdış elədi
tarixə birbaş,
Qaytardı yaddaşa
tarixi çağdaş!

* * *

Çevriliş cəhdləri,
qanlar, qadalar,
Yersiz söz-söhbətlər,
yersiz hədələr,
Meydan götürsə də,
meydansız qaldı,
Bəd dərdlilər elə
dərmansız qaldı.
Xalq dərdinə qoyub
məlhəmi Heydər!
Heyran etdi dünya-
aləmi Heydər!
Xalq yolunda keçdi
ömrü – zamanı,
Səbrlə qabaqlayıb
dövrü – zamanı,
Bəd əllərdən
dövlətini qurtardı,

Böyük ağrı –
acıları ötürdü,
Sağlamlığın qoyaraq
xalq yolunda,
Var gücüylə çalışıb
haqq yolunda,
Dünyamıza
dünya boyda
ruh verdi,
Qəlbimizə
güc-qüvvə,
guruh verdi.
Söz qaynadı
ürəyimdə eşqimdən,
Qəlbimdəki dürr
sözlərin məşqindən
Artdı elmim,
söz yoğurdum,
söz yapdım,
Arzu dolu
öz yolumu
düz tapdım.
Şair oldum,
yazar oldum
fərəhdən,
Ruh alaraq
Ulu Heydər
Tərəfdən.
Hər zəfəri, qələbəsi
bir sevinc,





Kök saldıqca ürəklərdə
yer sevinc,
Günü-gündən
çiçəkləndi yurdumuz!
Günü-gündən
ürəkləndi ordumuz!
Səf düzüldü
mərd igidlər ordumda,
İfşa oldu
möhtəkirlər yurdumda!
Böyük itki verdi –
Xalqım, Heydərim!
Üzdü ürəyimi
qəmim, kədərim!
Xalqın çörəyinə
xain olanlar
Vurdu Afiyəddini
Şəmsini onlar.
Duşdü ölkə boyu
çaşqınlıq, sükut,
Böyük söz-sözbətə
qərq oldu bu yurd.
Bütün Azərbaycan
ayaq üstündə:
Kim durdu Afiyəddin,
Şəmsi qəsdində?...
O alçaq, o naqis
qatili tapmaq,
Onun dərisinə duz,
saman təpmək

Tələbin eyləyir Xalq,
millət hamı,
Ki, bitsin ölümün
sonu, davamı!...
Əjdərxanı qurban
verdik və dözdük,
Torpaqları əldən
verdik və dözdük!...
Bəsdir bu dözümün
sonu ölümsə,
Dözmək istəməyir
daha bir kimsə!
Xalq zəncir gəmirir,
əmr gözləyir!
Heydər təmkin edir,
səbr eyləyir!...

* * *

Xalqına üz tutur
yenə də Heydər!
«Qurbansız azadlıq
mümkünmü məgər?!
Orduda var ikən
pərakəndəlik,
Xalqı qoymaq olmaz
çöllərdə ləlik!»
Atəşkəsi qəbul
eylətdi güclə,
Düşmənə möhürü
vurdu surğucla...





Elə qıfılladı
ağızlarını,
Elə qurutdu ki,
boğazlarını,
Sözü ağzındaca
qaldı düşmənin,
Baş oldu düşmənin,
dəyən daş
mənim.
Torpağı bölünən
yurd-yurddaş
mənim
Olsa da, qəlbimdən
itmədi inam.
Çünki zamanında
yetişdi İlham!
Yoxsa kim edərdi
Heydəri əvəz?...
Böyük sıxıntıda
qalardı hər kəs!...
Böyük arxa oldu
ataya oğul,
Yoxsa ayaq alar
nökər-naib, qul,
Min fitnə-fəsaddan
çıxa bilərdi,
Özünü meydana
soxa bilərdi.
Xalqım üzün kimə
tutardı sonra,

Düşüncəm özümü
çəkərdi dara!
Elə düşüncəmdən
asılıb ölər,
Arzuma çatmamış
əriyər, solar,
Var ikən yox kimi
görünərdim mən!
Sonsuz qəm kədərə
bürünərdim mən!
Düşüncəm içimdə
heçə dönərdim!
Kəcavədə gedən
köçə dönərdim!
Muğana bölünər,
Milə bölünər,
Gəncəyə, Şəkiyə
elə bölünər,
Azərbaycan itər,
olardı röya!
İnan heç olardı
gözlərdə dünya!
Xəzər qaynayardı,
Xəzər daşardı,
Yurdumda, nə bilim,
kimlər yaşardı?!...





* * *

Sevincdən cismimdə
gözlər yaşardı!
Qəlbimdə sel gedir
bir şarhaşardı
Ki, leysan sətirlər
kəsir həddimi,
Ötür sərhəddimi,
kəsir səddimi.
Nə yaxşı, sərhədsiz
yaşayıram mən,
Qəlbimdə bir günəş
daşıyıram mən,
Xalqımın adıyla
yaşayıram mən!
Qollarını geniş
açıbdı Vətən,
Artıq İlhamını
seçibdi Vətən!
Bunu mən demirəm,
İlhamım deyir,
Xalqıma, elimə
inamım deyir,
Böyük Heydərimə
inamım deyir,
Böyük zəfərimə
inamım deyir,
Böyük İlhamıma
inamım deyir!
Nəvə Heydərimə
inamım deyir!

## ÖLMƏZ İNSAN

Sən ölmüsən deməyə
dilim gəlmir, gələmməz,
Sən çatdığın zirvəyə
bir kimsə yüksələmməz!
Cahanın diqqətini
kimsə səncə çəkəmməz,
Sən əkdiyin toxumu
qeyri kimsə əkəmməz!
Sən həyatın özündə
özün boyda həyatdın,
Ölkənin hər küncündə
xariqələr yaratdın!
Sən mənə həyat boyda
düşünməyi öyrətdin,
Sən, Sən tutdun əlimdən
bu sənətə yönəltdin!
Sən açdın mənə söz-söz
bu sənətin sirrini,
Sən, sən göstərdin mənə
hər bir sözün yerini!
Gör bir nələr öyrəndim,
sənin mərd həyatından,
Nələrə yiyələndim,
yazdım, qaldı adımdan!
Mənim zəfər bayrağım,
mənim hünər bayrağım,
Adıntək dalğalanır
başımızın üstündə





Yazdığım hər bir fəsil,
yazdığım hər varağım,
Adınla varaqlanır
ürəyimin özündə.
Gözümdən damla-damla
yaş düşdü ürəyimə,
Sənin ölüm sədanla
daş düşdü kürəyimə!
Düz otuz il yol gəldim,
aram-aram arxanca,
Dərdsiz oldum, dincəldim
qram-qram yazınca.
Sənlə görüşmək mənim
ən ümdə arzum oldu,
Ancaq çata bilmədim,
bu, alın yazım oldu!
Qarşında baş əyməyə
tələssəm də çatmadım,
Heç olmazsa bir dəfə
mən əlindən tutmadım,
İndii ruhun önündə
mən əyərək boynumu,
Ruhuna çadırıram,
ağrım, hissim, duyğumu!
Gözümün leysan yaşı
qəlbimə yağar qaldım,
İtirib mərd yurddaşı
qəlbimdə ağlar qaldım!
Ürəyim, nə vücudum
belə ağrı duymamış,

Sənin kimi insana
Tanrı necə qıyarmış?!
Həyatının, ömrünün
hər anı örnək!
Sənin gördüyüntək
dünyanı görmək
Nəsib olmayacaq
başqa kimsəyə!
Xalq, tale yolunda
Səntək ərsəyə
Kimsə yetişəmməz,
yetişən deyil!
Sənsiz sınan qəlblər
bitişən deyil!
Kimi bağışlayım,
kimi əhv edim?
Axı bu deyildir
mənim sənətim!
Sən ki tək gəlmişdin,
təkcə də getdin,
Bu gün dünyamızı
tək də tərk etdin!
Bəxtinə örnəklik
yazılmış kimi,
Narahat etmədin
əsla heç kimi!
Özünsə hər zaman
oldun narahat,
Yerin behişt olsun,
Babam, rahat yat!
Əfv etdin düşməni,





yağını da sən,
Əfv etdin qulduru,
oğrunu da sən!
Səni əfv etmədi
İlahi, niyə?
Niyə verdi xalqa
bu ahı, niyə?...
Axı necə gedim
sabaha sənsiz,
Getsəm, batmarammı
günaha, sənsiz?...
Buna hə desəm də,
bacarammaram,
Səni ürəyimdən
çıxarammaram!
Sən millət atası,
mən sənə övlad,
Qoparmı atadan,
ölsə də övlad!
Yox-yox, ayrılmağım
heç mümkün deyil,
Mümkün olsa belə
bu, düzgün deyil!
Axı ürəyimin
özündəsən Sən,
Əvəzsiz güşəsi –
gözündəsən Sən!
Mən Səndən alaraq
enerji, şüa,
Yaşadım ömrünə
edərək dua.

İndisə diləyim
ruhuna şadlıq,
Çünki Sən yaratdın
yurdda abadlıq!
Tək sənə borcluyam,
Sənə dünyada,
Sənsiz olardı puç
fəna, dünya da!
Şöhrətli adındır
söykəncim mənim,
Yoxsa tükənməzdi
işgəncəm mənim!
Sən əkdiyin toxumlar
cücərəcək, bitəcək,
Sənə layiq oğullar
zirvələri ötəcək!
Çünki, Sən önümüzdə
işıqlı bir yol qoydun,
Onu davam etməyə
İlhamtək oğul qoydun!
Ruhun ilə böyüyən
balaca Heydərimiz,
Böyüyəcək, olacaq
gələcək rəhbərimiz!
Uyu böyük rəhbərim,
Uyu böyük Heydərim!
Sənin adınla bağlı
hər qələbəm, zəfərim,
Sənin qoyduğun bu irs
tükənməyən sərvətdir,
Uyuduğun bu torpaq
Heydər nurlu şəfqətdir!





Şöhrətinlə, ruhunla
ürəklərə yol tapdın,
Cismindəki nurunla
Ana torpağa hopdun!
Ayağının nuruyla
olsa da bələm-bələm,
Cismini qəbul edən
torpaq oldu nur-aləm!
Ovuclara yol tapan
bax bu nurlu torpaqdan
Cücərən hər mərd oğul
Heydər nurlu olacaq!
Hər biri Heydər kimi
mərd, qürurlu olacaq,
Sən elə bir iz qoydun
ki, silinməz qəlblərdən!
Sən elə bir irs qoydun
ki, silinməz qəlblərdən!
Sən bu böyük cahanda
cahanlaşan Dahisən!
Nə ürəkdən, nə qandan
silinməzsən daha sən,
Sənsən əbədiyyət də
Sənsən var da, dövlət də!
Həyatınnın özüdür
böyük haq-ədalət də!
Ümdə mənəvi dəyər!
Ümdə mənəvi Ata!
İlhamlı oğlun gedir
öndə mənəvi ata!
Dayanıb arxasında

İlhamının da vətən!
Qoruyacaq onu da
zirvənə yetənətən!
Çünki sən ata oldun
doğma Azərbaycana!
O da qaytarmaq üçün
sənin bocunu sana,
Böyük arxa, dayaqdır
sənin İlham oğluna!
Budur atalıq borcu
ataların önündə,
Oğul böyütmək gərək
ataların yerində!
Öz mənəvi atası
Heydəri yola salan,
Onunla bir keçdiyi
illəri yola salan!
Ondan mənəvi dayaq,
enerji və ruh alan,
Onun bayrağı altda
dünyaya güruh salan
Xalq bilir, millət bilir
ki, borcu var önündə,
Bu borcu vermək üçün
yardımçı var önündə.
İlham xalq – xalq İlhamla
birləşərək inamla,
Ulu Heydər yolunda
birləşərək inamla,
Yeriyəcək qürurla,
qələbəylə, uğurla!





## TƏK ÜRƏKSƏN DÖYÜNƏN – MİLYONLAR SİNƏSİNDƏ

Dünən öndə idin,
bu günsə yoxsan,
Ölümün yalandır
özünsə Haqsan!
Heç də öyünməsin
qatil Əzrayıl!
Hər zaman qəlblərdə
yaşayacaqsan!

* * *

Tanrı verdi səni
Azərbaycana,
Sən onu tanıtdın
bütün Cahana!
Əksin gözlərimə
elə hopub ki,
Tək səni görürəm
baxıb hər yana!

* * *

Önündə başımı
əyib təkrarən,
Ruhuna deyirəm
bu sözləri mən!
Bəşər tarixində
yeganə, təksən,
Öndə də hər zaman
sən gedəcəksən!

* * *

Elə yaşadın ki,
qəlblərə doldun,
Sönməz Günəş oldun,
sönməz təb oldun,
Cahan özü açdı
qucağın sənə,
Cahanda əbədi
bir məktəb oldun!

* * *

Doğma ocaq bildi,
isti yurd bildi!
Dünya hər bir küncün
bucağın Sənə,
Xalqınsa Səni də
bir Qorqud bildi,
Çatdın axirətə
xalqın çiynində!
Hər bir böyüyün də,
hər kiçiyin də
Qəlbini sızlatdı
ölüm xəbərin,
Dünyanı sasıtdı
qəmin, kədərin!
Azərbaycan adlı
böyük əsərin
Dünya oxuduqca
deyir: "Afərin!"





* * *

Dəniz yeriyirdi
sahilə sanki,
Hələ qaynamamış
belə inan ki,
Elə qaynayır ki,
insanlar bu gün!
Körpələr, qocalar,
cavanlar bu gün,
Hamı bir istəklə
yığışıb gəlib,
Hamı bir atəşlə
alışıb, yanıb,
Hamının ağrısı –
acısı birdir,
Yoxluğun qəlbləri
qoparır, didir!
Kiminnin göz yaşı
yanağıylabir,
Kiminin leysanı
qəlbeviylə bir!
Bu gün ağlamayan
insan tapılmaz,
Tapılsa, o kəsdə
vicdan tapılmaz!
Sənin böyük oğlun
Azərbaycandır!
O da İlhamınla
bir qəlb, bir candır!

Ağrıdan yoxluğun,
ağrıyan – candır,
Bu ağrını çəkən
bütün cahandır!
Tanrı pay versə də
Azərbaycana,
Sən gərəkli oldun
bütün cahana!
Böyük sevgi ilə
yanaşdın ona!
Sən bəşəri oldun
bəşəriyyətin!
O böyük sevginin,
o ülviyyətin
Dadını hiss edən
bütün insanlar
Dəfn törənninə
yığışıb gəlib,
Sel kimi sürətlə
axışıb gəlib!
Qəlbi dua dolu,
qəlbi ah dolu,
Fəxri xiyabana
Gibləgah yolu
Çiyinlərdə saldın
qəlblərdə saldın,
Həyatdan köçsən də,
qəlblərdə qaldın!
Ölkəyə ikinci
dönümünlə də,





Haqlı yaşamağın,
ölümünlə də
Xariqə yaratdın
şəhərdə, kənddə!
Meydanları tutan
şəhərdə, kənddə
İnsan axının
sonu görünmür,
Leysan yağışının
sonu görünmür!...
Yaş axıb gözlərdə
gilələnibdi!
Qan axıb qəlblərdə
silələnibdi!
Məzarın önündə
baş əyir Cahan!
Cahanda sənə
bənzər bir insan
Bəşər tarixinə
vardım durmadan,
Tapmadım şəxsinə
bənzər qəhrəman!
Cahana tək gəldin,
sən tək də getdin!
O səni sevsə də,
tərk etdin, getdin!
Qovuşub bir anda
əbədiyyətə,
Böyük ağrı verdin –
Bəşəriyyətə!

Çətin ki, qıyardı
sənə Yaradan,
Sən özün tərk etdin,
köçdün dünyadan!
Kimsəyə əziyyət
verməmək üçün,
Kimsəni incidib
yormamaq üçün,
Sənin özün seçdin,
bu yolu, özün,
Sən özün ilahi
olduğun anda
Əzrayıl bənd ala
bilməz yanında!...
Sən, sən özün yumdun
gözünü bərkdən,
Köçdün bu dünyadan
sən bilərəkdən...
Mələklər qoynuna
köçdün birbaşa,
Əlvida demədən
qohum-qardaşa!
Sınağamı çəkdin
bu xalqı, nədən?
Bəlkə incimişdin
yurdda kimsədən?...
Ürəklər açıqdı
önündə sənin,
İncimək, incitmək
qanında sənin





Yoxudu və sənlə
doğulmamışdı!
Cavanlıq, gəncliyin
haqqında sənin
Yaşıdların mənə
nağıllamışdı!
Sən hər kəsə ata,
dostdun, qardaşdın,
Sən mənə qəhrəman,
böyük sirdaşdın!
Mənim ətrafım da,
yanım da səndin,
Bütün düşüncəm də,
qanım da səndin!
Sanki yoxluğunla
həyatım söndü,
Dünya gözlərimdə
bir heçə döndü!
Ölüm gözlərimə
girsə də belə,
Səbəb ola bilməz
məndə məhələ!
O, sənə çatıbsa,
mənə də çatsın!
Milyon mən deyəni
sındırsın, atsın,
Kimsə çatan deyil
ölümünə də,
Cahan sevgisini
bölümünə də!

Sən o məhəbbəti
böldün yarıdan,
Bu da bir qismətmiş
Ulu tanrıdan!
Adın yaşayacaq
ürəkdə, qanda,
Heç zaman bölünməz
Azərbaycanda!
O, Sənin adındır!
Sənin özünsən!
Döyünən ürəyim,
görən gözümsən!

* * *

Sən bu böyük millətin
döyünən ürəyisən,
Heç vaxt ölməz adınla
hər zaman gərəyisən!
Elə hopmusan xalqın
ürəyinə, qanına,
Yayılmısan millətin
ruhuna, həm canına!
Əbədiyyətdir Sənin
adın hər bir ürəkdə,
Sənsiz heç vaxt, heç zaman
döyünməz bir ürək də!
Tək ürəksən döyünən
milyon-milyon sinədə,
Elə də qalacaqsan
ötsə lap min «sənə» də!





## YÜKSƏLƏCƏYİK GÜN-GÜN, GETSƏK BU YOLLA DÜZGÜN

Yüksələcəyik gün-gün,
getsək bu yolla düzgün!
Bu yolu qoyub Heydər!
Əbədi çalıb zəfər!
Bu yolu bir gün əgər,
təkzib etsə bir nəfər,
Qarışar əhvalımız
bölünər mahalımız.
Olarıq bölük-bölük,
torpağı tilik-tilik
Edib yada satarlar,
sonumuza çatarlar!
Bunu unutmaq olmaz,
başqa yol tutmaq olmaz!
Xalq kimi, millət kimi
əbədiyyət yolunuz,
Budur, açıbdır onu
böyük Heydər oğlunuz.
Açdığı hər cığırla,
qələbəylə, uğurla
Otuz dörd il yol keçdi,
axır bu yolu seçdi!
O, bu yolu salınca
oddan, alovdan keçdi,
O, bu yolu salınca
şaxta, qırovdan keçdi!

O, bu gün köçsə də
fəna həyatdan,
Adı silinməzdir
Yaddaşdan, yaddan!
Elə kök salıb ki,
ürəyimizdə,
Əbədiyyətəcən
silinməz qəti,
Elə borc qoyub ki,
kürəyimizdə,
Əbədiyyətəcən
ödənməz qəti!
O borcdan bir yolla
mümkündür çıxmaq,
Ölüncən özünü
bu yolda yaxmaq!!
İnsanlıq borcudur
bu ən müqəddəs!
İnsanmı bu yoldan
yayınsa bir kəs?...
Hər kəs bu suala
versə düz cavab,
Qazancı "sağ ol" dur
və böyük savab!
Öndə bircə yol var
müqəddəs, ulu!
Çünki Ulu Heydər
salıb bu yolu!
Başqa yol seçməyə
heç dəyən deyil,





O yol bizə heç nə
ödəyən deyil,
Ayıl, vətən oğlu,
yatmağa dəyməz!
Başı boş işlərə
qatmağa dəyməz!
Ya özün düşün, ya
məsləhət götür,
Məndən sənə ancaq
məsləhət çatır!

## ÖLMƏYİBDİR YAŞAYIR, ÜRƏKLƏRİN BAŞINDA

«Başlarının üstündə
gəzdirdilər insanlar,
Başlarının üstündə
gətirdilər insanlar!
Ali məclis üzvləri
yığışdılar bir anda,
Olsa da içlərində
aralıqdan qaçan da!»
Bu sözləri yanımda
duran bir oğlan deyir,
Naxçıvan torpağının
övladı Mərdan deyir!
İzdihamın içində
eşitdiyim bu sözlər,
Qaytardı yaddaşıma
keçmişi birər-birər!
Elə dondum bir anlıq,
yer-göy oldu bulanlıq,
Ürəyimə düşən qəm
gözlərimə verdi nəm,
Nəfəsim tam dayandı,
sinəm od tutub yandı!
Ayaqlarım yerimir,
qulaqlarım eşitmir!
Gözlərim açıq ancaq,
heç nə görə bilmirəm!





Hönkürmək istəyirəm,
mən hönkürə bilmirəm!
Ancaq düşdüyüm dəniz
aparır məni mənsiz!
Yanımda mənlə
birgə dostum var,
bacoğlum var,
Elə bil yox oldular,
itdilər,
qeyb oldular.
Bu dəniz elə dəniz,
batarsan, boğulmazsan,
Bu dəniz elə dəniz,
yıxılarsan, durmazsan!
Əgər düşsən selinə,
bənd də səni saxlamaz,
Çəmin alsan əlinə,
bənd də sənə tablamaz!
Gər qabarsa üstünə,
göz tablanmaz tüstünə!
Bu dəniz elə dəniz,
onda görən göz də var,
Bu dəniz elə dəniz,
onda şüur, söz də var!
Bu dəniz elə dəniz,
dağa qalxar, dağ enər,
Bu dəniz elə dəniz,
qarşısında dağ enər,
Bu dəniz elə dəniz –
dağ oynadar yerindən,

Bu dəniz elə dəniz,
Hökmündən, hünərindən,
şahlar qaçıb saraydan!
Bu dənizi seliylə
özü qurub Yaradan,
Bu dənizin seliylə
dağ yox olub aradan!
Tapıb böyük ağılla
bu dənizin çəmini,
Bölüb böyük uğurla
qəhərini, qəmini,
Bu dənizə veribdi
sevgisinin cəmini!
Dincəlməyə doğru heç
döndərmədi gəmisin!
Onun həyat gəmisi
ümmanlarla bir oldu,
Doğma övladı bildi
bu millətin cəmisin,
Onun eşqi, qayəsi
ümmanlarla bir oldu,
Budur, qabarıq dəniz –
insanların axını,
O, bütün insanların
ən doğması, yaxını
Olduğu bu gün aşkar,
bəlli oldu cahana.
Bəd danışan alçaqlar
bəlli oldu cahana!





Ürəklərin leysanı
bəbəklərdə damladı.
Böyük insan axını,
hər biri də qəmlidi!
Ürəyimin qaynarı
gözlərimə nəm verir,
Sözlərimin qaynarı
söz pərimə dəm verir!
İzdihamın içində,
Ulu Heydər köçündə,
Hövsələm qərar tutmur
qaynar sözlər içində!
İstəyirəm bağıram
bu qaynar
dəniz boyu,
İstəyirəm çağıram:
"İnsanla...a...r",
dəniz boyu,
Yeriyin, qoy seyr etsin
dünya bu mənzərəni,
Yeriyin, qoy qeyd etsin
dünya bu mənzərəni,
Bu mənim haqlı səsim,
qaynar, isti nəfəsim,
Bu mənim haqlı kəsim,
eşqim, qayəm, həvəsim!
Bu məğrur Sönməz Günəş,
qəlbi dolu od, atəş,
Yandıra bilməz məni
ölüm dolu yad atəş!

Məni yandıran ancaq
öz günəşim, odumdur!
Dəniz kimi qaynayan
izdiham, öz ordumdur!
Cedir əbədiyyətə
xalq çiynində
Heydərim!
Gedir əbədiyyətə
haqq çiynində
Heydərim!
O ölməyir, doğulur –
günəş kimi yenidən!
Ürəklərdə doğulur
günəş kimi yenidən!
Sönməz Günəş – nur-aləm
bəzəyəcək yurdumu,
Sönməz şüalarıyla
gözləyəcək ordumu,
Daha onu bir kimsə
ürəklərdən almmaz,
Belə bir kökü kimsə
ürəklərdə salammaz!
Sönməz Günəş Heydərim
düz səksən bir yaşında!
Ölməyibdi yaşayır
ürəklərin başında!





## ƏBƏDİYYƏTƏ GEDƏN YOLDA

Çoxları arzulayır
onun memuarını,
Oxumaq istəyir xalq
öz böyük memarını!
O, bunu yazmasa da,
öz əliylə kağıza,
Ürəklərdə yazıldı,
düşdü dilə-ağıza!
Həyatıyla tarixə
yazdı qızıl memuar!
Memuarı deyilmi
onun bu yurd, bu diyar?!.
Öz xalqından seçmədi
xalqları, azlıqları,
Ən zəngin memuardır
tarixə yazdıqları!
Yurdumun hər torpağı,
hər daşında izi var!
Büllur buz bulaqların
göz yaşında sözü var!
Yurdda hər gur şəlalə,
axan çay
"Heydər" deyir,
Müqəddəs izlərinə
baxan can
"Heydər" deyir!

Gözü yaşlı çiçəklər
baş qaldırdı torpaqdan
onu yola salmağa
Xəstə yatan ürəklər
baş qaldırdı yataqdan
onu yola salmağa
Əbədiyyətə getdi
onun yolu birbaşa,
Onunçun da əlvida
demədi dost-qardaşa!





## XALQIMIN ÖLMƏZ OĞLU!
## BÖYÜK – ULU HEYDƏRİ

Əfsanəvi qəhrəman
adı sənə məxsusdur!
Səndən sonra da xalqın
zəfəri, qələbəsi
Yenə sənə məxsusdur!
Böyük poeziyada
ən dəyərli söz, kəlmə,
Ancaq sənə məxsusdur!
Yaddaşıma Sən yazdın
dürlü – dürlü sözləri!
Xalqımın ölməz oğlu,
Böyük – Ulu Heydəri!

***

Xalqımın tarixində
ən uğurlu yol sənin,
Xalqım üçün dəyərli
ən böyük oğul sənin!
Adın sevindirəcək
gələcək nəsilləri!
Xalqımın ölməz oğlu,
Böyük – Ulu Heydəri!

***

Bütün sağlamlığını
xalqa, millətə verdin,
Xalqa, millətə mənsub
böyük şöhrətə verdin!

Ağrı-acısın atdın,
yerin qüdrətə verdin,
Dünyanın gözü etdin
mavi gözlü Xəzəri,
Xalqımın ölməz oğlu,
Böyük – Ulu Heydəri!
***
Ölümünlə də xalqa
şöhrət verdin,
şan verdin,
Özün həyatdan köçdün,
millətimə
can verdin!
Dövlət, var gəzənlərə
sən Azərbaycan verdin!
Ruhuna təzim edir
yurdun şair, yazarı,
Xalqımın ölməz oğlu,
Böyük – Ulu Heydəri!
***
Həyatınla, adınla
qızıl tarix,
yaddaşsan,
Millətin tarixində
heç vaxt ölməz
yurddaşsan,
Böyük Mustafa Kamal
Atatürklə qardaşsan!
Yurdun Sönməz Günəşi,
qızıl axşam – səhəri,





Xalqımın ölməz oğlu,
Böyük – Ulu Heydəri!

***

Qəhrəmanlar içində
ən böyük qəhrəmansan,
Ümanlar aləmində
sən ən dərin ümmansan,
Hər vaxt sənlə bağlıdır
hər qələbə zəfəri,
Xalqımın ölməz oğlu,
Böyük – Ulu Heydəri!
***
Adınla fəxr eyləyir
yurdun qızı – oğulu,
Körpələr dünyasının
şeri, qəzəl, nağılı,
Millətimin atası
həm də böyük oğulu,
Ömrünün hər anıyla
qabaqladın illəri,
Xalqımın ölməz oğlu,
Böyük – Ulu Heydəri!

***

Silinməz izlər qoydun
hər ürəkdə, hər qəlbdə,
Əbədi tarix oldun
oxunan hər məktəbdə,
Çətin insan doğula
Sən ürəkdə, Sən təbdə,

Doğma Azərbaycanı
etdin dillər əzbəri,
Xalqımın ölməz oğlu,
Böyük – Ulu Heydəri!
Dövlətimi, ordumu
Sən qurdun
Sən yaratdın,
Xoşbəxtliyə doğru yol
Sən açdın
Sən öyrətdin,
Yolundan çıxanı da
öz yoluna yönəltdin,
Adınla heyran qoydun
xalqları, millətləri,
Xalqımın ölməz oğlu
Böyük – Ulu Heydəri!





## HEYDƏR ATA – ATATÜRK

Bir ürəkdə iki təb,
Bir xalqa iki məktəb,
Oxuyub alıram təb!
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
Bir qəlbdə iki tərəf,
Gətirən çəki, şərəf!
Dansam ollam bişərəf!
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
Ağrı Qafqaz dağları,
Qocatürk övladları,
İçindən yanar qoydu
Yağıları, yadları.
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
Bir səmada cüt günəş!
Bir sinədə cüt atəş!
Bir tarixdə cüt qardaş!
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!

Bir millət – iki dövlət,
Biri şan! biri şöhrət!
Cahan müstəvsinidə,
İki türk! İki qüdrət!
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
Ürəyimin sevinci,
Sözləri gövhər, inci,
İki böyük məktəbdir,
Mən orada öyrənci!
Tarixindir! – Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
Bir sinədə döyünən
Öz xalqıyla öyünən,
Böyük uğurlarıyla,
Ölməz insan deyilən!
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
Bir bağda qoşa çinar,
Əbədi məşəl-yanar,
Bir əbədi səmada,
qanad çalan qartallar!
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!





İnsanlığın ölçüsü,
Millətinin çəkisi,
Ürəyimə həkk olub!
hər birirnin öz əksi!
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
Bir bədəndə iki göz,
Şirin söhbət, şirin söz,
Qəlbimə fərəh verir,
Birləşəndə iki söz!
Tarixindir! – Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
İki qızıl zamandı,
İki əsrə çatandı,
Əbədiyyət məktəbi,
Sanma təkrarlanandı!
Tarixindir! Qocatürk!
Heydər Ata! – Atatürk!
* * *
Bir tarixdə səhifələr,
İlahidən töhfələr,
Qocaturk tarixində,
Əl çatmayan zirvələr!
Tarixindir! – Qocatürk!
Heydər Ata! – Atatürk!

## QALDIM ÜZÜNTÜLÜ QƏMİN İÇİNDƏ

Dünya hazırlaşdı
doğum gününə,
Təbriklər deməyə
sənin şəninə,
Amansız xəstəlik
aman vermədi,
Yol aldın Gülhanə
tədavisinə.

* * *

Elə inandırdın
doğmanı, yadı,
Böyük ümüdlərlə
gözlədi hər kəs,
Elə doğmalaşdın,
bir yad qalmadı,
Səni addım-addım
izlədi hər kəs,

* * *

Sinəni mərd gərdin
hər bir ağrıya,
Qeyrətin göstərdin
düşmən yağıya.
Xalq vərdiş etmişdi
qurban kəsməyə,
Gözləməzdi belə
yana, ağrıya.





Ümidsiz qoymadın,
etdin vərdişli,
Kimsə gözləmirdi
belə gəlişi,
Əhdə sadiq qaldı
xalqın, millətin,
Bilmədən dünyanı
belə gərdişli!

* * *

Sonsuz ümidlərin
sonu fənaymış,
Gərək bu dünyanı
insan qanaymış
Ki, xalqın, millətin
atasına da
Torpaq həm ataymış,
həm də anaymış!

* * *

Böyüdən də özü,
udan da özü,
Yıxılsan, qolundan
tutan da özü,
Heç kimə məsləhət
etmirmiş, demə,
İnsanı əbədi
qucan da özü!

* * *

Torpaq müqəddəsdir,
demək, bu imiş,
İnsana qıydığı
daş, od, su imiş.

Sinəsinə özü
alıbmış demə,
Çünki son mənzil
onunku imiş!...

* * *

İnsana ruh verən,
ruhsuz aparan
Torpağa müqəddəs
necə deməyim?
Haqqını versə də,
haqsız yatıran
Torpağa müqəddəs
necə deməyim?

* * *

İnsan bölünsə də
yaxşı, pisinə,
Torpaqsa fərq qoymur
heç birisinə.
Elə yerləşdirir
qucağında ki,
Heç məhəl də qoymur
soyu, irsinə!

* * *

İnsan göstərsə də
pula hərislik,
Dünyada qalan tək –
yaxşılıq, pislik,
Pula etibar yox,
min əldə gəzir,
Unudulmaz ancaq
yaxşılıq, pislik!





* * *

Dəyərli insanın
dəyəri ancaq,
Axirət günündə
bilinəcəkmiş,
İnsanın qaydına
dəyərli ancaq
Ölümündən sonra
qalınacaqmış!

* * *

Dəyərli insanlar
sağ ikən ancaq,
Dəyərli zəhmətə
salınacaqmış,
Həyatçün nəyi var
gücü çatacaq,
Ondan dəyərincə
alınacaqmış!

* * *

Pisdən pis qalarmış,
yaxşıdan yaxşı,
Bu imiş dünyanın
bəzəyi, naxışı,
Burda elə böyük
bir hikmət var ki,
Onu duya bilməz
bisavad, naşı!

* * *

Ömrü verən özü,
sonun da bilir,
Onu yaşayana
nədənsə demir.
Sonu ölümdən də
betər olacaq,
Kim ki qismətinə
düşəni yemir!

* * *

"Gəhd çarıq yırtandır"
deyib atalar,
Yersiz cəhd göstərən
çarıqsız qalar,
Çörəkçiyə çatıb
həyatda çörək,
Çörək verməyənlər
çörəksiz qalar!

* * *

Dünya təməlindən
elə qoyulub,
Ondan baş açmağa
işlək baş gərək.
İnsan təməlindən
elə yoğrulub
Yaşamaqçün ona
tərəfdaş gərək!





* * *

Tərəfdaşlıq ancaq
əqrəbalıq yox,
Müqəddəs birlikdir
qalabalıq yox,
Elə qurulub ki,
təməldaşından,
Orda alım gərək,
çoban-çoluq yox!

* * *

Elmin də elmi var,
anlamaq gərək,
Adı insanlıqdır,
danmamaq gərək,
Qəlbində bu ada
sevgi yoxdursa,
Onu kimsədən də
ummamaq gərək!

* * *

Laqeyidlik əfidir,
qəlbin ilanı,
Qəlblərə köçübdür
Qərbin talanı,
Ağrısı, acısı
bulud-buluddur,
Ağlasa sel basar
cümlə-cahanı!

* * *

Təbiət cismini
atıb araya,
İnsan var bacarmır
susa, kiriyə.
Sərtqaya isminə
elə çatıb ki,
Yolu də qalmayıb
dönə geriyə!
Sükanı mərd əldə
yeni təməldə
Tutub cilovundan
edib cəm əldə,
Ulu Heydəroğlu,
Heydər atası,
Sönməz Günəş soylu
təb də, təməl də!

* * *

Niyə susum axı
qəlb danışanda,
Necə sərin qalım
qəlb alışanda,
Ha tərəfə dönsəm,
öndəyəm, öndə,
Hər zaman ilhamla
təb yarışında!





* * *

Bir ümman görürəm:
yerə yerləşmir,
Başı göylərdəsə
göylə əlləşmir,
Hövsələdi,
başdan-başa təmkindi,
Ancaq dərdi
bir cahana yerləşmir!

* * *

İlk görüşdən hopub
mənim qəlbimə,
Son qoysa da
qəlbdə olan qəmimə,
Dərdi, qəmi
yerə-göyə yerləşmir,
Şair qəlblər
onsuz sınıb, birləşmir.

* * *

Heç zaman onunla
görüşməsəm də,
Söhbət etməsəm də,
danışmasam da,
Ürəyim, nəbzim də
onla vururdu,

Elə bil qartaldım
uçan səmada!

* * *

Ölüm xəbərindən
elə sarsıldım,
Kədər kəndirindən
elə asıldım,
Hələ də qopmağa
gücüm çatmayır,
Tanrının əliylə
oda basıldım.

* * *

Yandım için-için,
ağladım gizli,
Qəlbimə qış qondu
dərəli, düzlü,
Kürəyimə sanki
daş bağladılar,
Günlər ağır keçdi
gecə-gündüzlü!

* * *

Axı kimin vardı
ondan ziyada,
Yaddaşdan ziyada,
yaddan ziyada,





Bəşər tarixində
qızıl fəsildir,
Silinməz
yaddaşdan,
yaddan dünyada!

* * *

Ürəklərdə Heydər,
Canlarda Heydər,
Axır damarlarda,
qanlarda Heydər!
Özündən sonra da
Azərbaycanda
Adıyla bağlıdır
qələbə, zəfər!

* * *

Zəfərlə yaşamaq
əzmin oyatdı,
Xalqımın nasirin,
nəzmin oyatdı,
Bir ömrə sığmayan
İşi, əzmiylə
Bəşər tarixində
ədəbiyyətdi!!
Həyatıyla mənə
ruh verdi müdam,

Dikildi izinə
yol çəkən didəm,
Bu dəfə özü yox,
sədası gəldi,
Sonsuz ağrı verdi
ürəyim, mədəm

* * *

Elə alışdım ki,
qəlbim, içimdə,
Elə dolaşdı ki,
qəmim içimdə,
Bütün vücuduma
kəsildi hakim,
Qaldım üzüntülü
qəmin içində!

* * *

Həyatda ən şirin
düşüncə – Heydər,
Yoxluğun versə də
işgəncə, Heydər,
Adın ürəyimdən
silinən deyil,
Eldar bu dünyadan
köçüncə, Heydər!!





## XALQ YOLUNDA SƏNSƏN ƏBƏDİ MAYAK

Qohum, dost qəlbinə
vursan da yara,
Köçdün xiyabana,
qovuşdun yara!....
Qovuşdun, ayrıldın,
yenə qovuşdun,
O, gəlin gəlmişdi,
sən bəy olmuşdun,
Ömür də keçmişdi,
gün də keçmişdi,
Tanrı özü sizi
sevib-seçmişdi.
Elə qovuşmuşduz,
müqəddəs, mətin,
Təməlin qoymuşduz
siz səadətin,
İnsan sevgisinin
və sədaqətin
Əsl nümunəsin
mən səndə gördüm.
Müqəddəs
insanlıq nümunəsini
Sizin ailənin
şəxsində gördüm.
Sevdiniz, seçdiniz
və qovuşdunuz,

Sizi sevgi ilə
doyurdu Tanrı,
Bu böyük sevgidən
doymasanız da,
Sizi sevginizdən
ayırdı Tanrı!
Qürbətdə torpağa
tapşırsanız da,
Qəbrin köçürməyə
imkan da verdi
Bu böyük millətə,
xalqa köməyə
Tanrı Səni ağır
zamanda verdi.
Sevdin xalqını da,
millətini də,
Müqəddəs sevgiylə
təmiz amalla,
Böyük çətinliklə və
qalmaqalla
Üz-üzə qalsan da
Sən sarsılmadın,
Duşmən qarşısında
aciz qalmadın,
Tükənməz sayəndə
ucaldı xalqım,
Yaşadı, daha da
qocaldı xalqım.
Xalqı həm ucaltdın,
həm də qocaltdın,





Dərin tarixini
yaydın cahana,
Adından bir tarix
qoydun cahana!
Elə bir tarix ki,
bir sirli dünya,
Ötüb tarix-tarix
bu sirli dünya
Şəxsində eralar
fəth edəcəkdir,
Dünyaya göz açan
yeni Eldarlar
Səni əsrlərlə
vəsf edəcəkdir!
Sənə həsr etdiyim
bu zərrələrdən,
Haqqında yazılan
hər bir əsərdən,
Çox böyük əsərlər
doğulacaqdır!
Bəhs edib sevincdən,
qəmdən, qəhərdən,
Dəst-dəst ləmələrə
yığılacaqdır!
Sənin həsrətini
çəkəcək dünya!
Tarixini söz-söz
sökəcək dünya!
Bütün çalarların
çəkəcək dünya!
Yaşadacaq rəsm-rəsm,
əsərbəəsər,

Qızıl tarix kimi
Səni sərasər,
Dünya öz köksünə
köçürəcəkdir!
Sözünün qaynarın
qaynar bulaqtək,
Zamandan – zamana
içirəcəkdir!
Dünyada ilahi
görüntüsən Sən!
Xalq üçün əbədi
öyüntüsən Sən!
Sağlam ürəklərdə
şirin məlalsan,
Ölməz düşüncəmdə
şəkərsən, balsan!
Zirvələr kəşf etdin
Sən hövsələnlə,
Bakıya Qibləgah
söylədim Sənlə!
Ziyarətgah dedim
Bakıya mən, mən!
Sənisə ziyarət
etmədim nədən?...
Elə kəsilmişdi
yollarım mənim,
Sanki bağlanmışdı
qollarım mənim,
Nə səsim çatmadı,
nə də ki, ünüm,
Ancaq sənli keçdi
toyum-düyünüm!





Ürəyimdə də Sən,
gözümdə də sən,
Hər şirin söhbətim,
sözümdə də Sən!
Yaşaya-yaşaya
yaşatdın məni,
Söz-söz sətirlərə
boşaltdın məni,
Boşala-boşala
doldum yenidən,
Sən oldun dünyaya
məni tanıdan,
Elə razıyam ki,
Ulu Tanrıdan,
Sözlərimin gövhər –
ləli Tanrıdan
Şəninə yazmağa
pay kimi gəldi,
Daşqın - selə döndü,
çay kimi gəldi,
Məzarın önündə
dayanmışam mən,
Adınla dünyaya
boylanmışam mən!
Etirafa gəldim
ruhun önündə,
Təzimim əbədi,
sözüm əbədi,
Buradır dünyanın
ən şah məbədi

Bunu da İlahi
pay verdi, dedim,
Qəlbimdən söz özü
hay verdi, dedim,
Dilimi də açdın,
gözümü də Sən,
Qəlbimə də saçdın,
sözümə də Sən!
Qəlbimdə dür sözlər
məşqinə daldım,
Yazıb-yaratmağın
eşqinə daldım,
Həyatınla yazdın
qəlbimə əsər,
Onu köçürməkçin
mənə sərasər
Bir ömür bəs etməz,
durmadan yazsam!
Bu yolda ömürlər,
günlər keçəcək,
Bu yolda əsrlər,
illər keçəcək,
Bu yoldan hələ
çox izlər keçəcək!
Sən əsrə dayaqsan,
zamana dayaq,
Xalq yolunda Sənsən
əbədi mayak!-
Haqq yolunda sənsən
əbədi mayak!!





## BÖYÜK DASTAN YAZMISAN ÜRƏYİMİN BAŞINA

Nur çilədin yurdumun
hər topağı, daşına,
Əbədiyyətdir yerin,
kimsə çatmaz yaşına!
Kağızdakı əksidir,
Böyük dastan yazmısan,
ürəyimin başına!
Sənin böyük adın
var, deyə öndə,
Bu gün mən də varam
Sənin kölgəndə!
Haqqında yazmaqdan
yorulmam, bezməm,
Qəlbimi sökməsəm,
tablamam, dözməm!
Tanrı tərəfindən
bağışlanarmı,
Qəlbim kitab-kitab,
söz dolu gəzməm?...
Özüm də özümdən
qisaslı qallam,
Şərəfsiz ölümə
əsaslı qallam,
Qəlbdən boşaltmasam
bu böyük mülkü,
Söz əlində qalar
başımın tükü!

İçimdə çürüyər,
çürüdər məni,
İçimdə əriyər ,
əridər məni!
Elə zaman-zaman
əriyərəm mən,
Dinməz, danışmaram,
kiriyərəm mən!
***
Ürəyimdə, qəlbimdə
əsərin, yazın,
Böyük axınıtək
Kürün, Arazın!
Qaynarını elə
salıb içimdə,
Qərar tutmaz
kəcavəmdə,
köçümdə!
Bu qonuda yazdığım
hər anımda,
Sənin adın
kök salıbdı qanımda!
Gözlərimdə
ürəyimin ağrısı,
Sözlərimdə
ləl-gövhərin qırğısı,
Buludlaşıb
yağmaq istər kağıza,





Mən yazmasam,
düşər dilə – ağıza!...
Zaman-zaman
boşaltmaq öz içimi,
Öz yurdumda qoymaq
qüdrət köçümü
Ən ali borc,
ali məqsəd, amaldır,
Həyatımda
bu ən qızıl zamandır
Ki, ömrümü
sərvət dolu edəcək,
Tükənməyən
şöhrət dolu gedəcək.
Əslərdən
əsrlərə səs kimi,
Heydər nurlu
təb kimi, həvəs kimi
Çatdıracaq
tariximi tarixə,
Çatdıracaq
arxivimi tarixə,
Nəsil-nəsil
anılacam sözümlə,
Ləl-gövhərli,
İnci-dürlü düzümlə!!

## O, ƏVƏZEDİLMƏZDİR

Gedir insan axını,
Doğma, qıraq, yaxını!
Düzəlib böyük karvan,
Öndəri böyük sarban,
Fikir söksə də məni,
Dilimsə gəlmir deyim,
Bu köçə ölüm köçü,
yaman ölçüsüz verdi,
Qəlblərə zülüm köçü!
Zaman ölçüsüz verdi,
Fikrimi-düşüncəmi,
artırdı işgəncəmi !
Şahidimdi ulu Gəncə!
Bir neçə il bundan öncə,
Ürəyimin İstəyiylə,
İlham-təbi, dəstəyiylə,
Sətirlərə söyləmişdim,
Belə bəyan eyləmişdim:

* * *

«Həyatım bir Əzrayıltək,
Əzrayıl da olacaqdır!
Ölümüm də nəhs gözlərdə,
Əzrayıltək qalacaqdır!
Çünki ölüm kəcavəmi,
xalq çiyninə alacaqdır!»





Budur, mənim dediklərim,
Göz önündə, xalq çiynində,
Gedir məğrur, mərd Heydərim,
Göz önündə, haqq çiynində!
Budur, əsl ömür yolu,
əvvəli və sonu şərəf!
Budur, əsl ömür yolu,
verən hər bir anı şərəf!
Bu cismanı ölümün
özü də bir şərəfdir!
Bu günkü tab, dözümün
özü də bir şərəfdir!
Həyatın mənası
yaşamaqdasa,
Şərəfli ölüm var
ondan da uca!
Bu ölüm ölüm deyil,
yaşamağın özüdür!
Bu hər kəsə çatan deyil,
Tanrı yazan yazıdır!
Hər eldə, hər obada
saxlayırlar yasını,
Belə biçirmiş Tanrı
dahilik libasını!
Dünyanın hər küncündə
ananların sayı yox,
Dünyanın hər küncündə
yananların sayı yox!
Kiçik bir kəcavədə
bir böyük Heydər gedir,

Yerləşibdi necə də
bir böyük rəhbər gedir!
İnsanın böyüklüyü,
ruhundaymış, ruhunda,
Dünyanı lərz etdirən
sözündə, guruhunda!
Dünyanın böyükləri,
özləri etdilər ərz:
«Əvəz etməz Heydəri
dünyamızda heç bir kəs!»
Sən deməmiş, dahilər
cismən çox nəciblərmiş,
Onlar da kəcavədə
dünyadan köçürlərmiş!
Ancaq yola salarmış
böyük insan karvanı,
Bu karvan apararmış
son mənzilə dühanı!
Budur, gözüm önündə
dünyadan köçən dahi!
Xalq karvanı aparır,
çiynində Qibləgahı!
Cahanı yanar qoyur,
qəmi, kədəri, ahı!
Onun hər bir ürəkdə
var böyük qərargahı!
Düşüncəm ağır-ağır
böyük bir dağa qalxır!
Oradan fağır-fağır
böyük yollara baxır!





Bu yolu salan kəsə
indi qalıb bir cığır,
O da gedib birbaşa
əbədiyyətə çıxır!
Bu ağrının içində
dünya qədər
sevinc var,
Bu ağrını bölüşən
milyonlar:
yaşlı, gənc var,
Karvan yeriyir ancaq,
səsi yox, səmiri yox!
Qəlblərdə yanır ocaq,
ölçüsü, qədəri yox!
Bütün millət ağlayır
için-için içində,
Narahat olar deyə,
heç kəs çəkmir için də!
Uzaqdan ağı deyən bir
qadın səsi gəlir,
Cansıxıcı sükutu,
qadının səsi dəlir!

* * *

Əzizim Heydər getdi,
Mən qaldım, Heydər getdi,
Tək bu məmləkətdən yox,
Dünyadan Heydər getdi!...

* * *

Soyuq tər basır məni,
Düşüncəm asır məni,
Elə çəkir ki, dara,
Çəngəldən asır məni.
Kürəyim sancır, sancır,
Ayağımdan yer qaçır,
Boşluğa düşmüş kimi,
Qaynarda bişmiş kimi,
İçimdə içim yanır,
Başımda saçım yanır.

* * *

Əzizim Heydər dağı,
Ürək şam, Heydər dağı!
Ölənəcən silinməz
Ürəkdən Heydər dağı!

* * *

Deyə qadın ağlayır,
O hamını yandırır,
O hamının dağlayır!
Səngimək bilmir dağı,
Xəzəl olur yarpağı.

* * *

Ürəyim dağda lala,
Uçubdu dağda qala!





Heydər – deyə qəm çəkir,
Düzdə gül, dağda lala!

* * *

Göz yaşı qəlbdə leysan,
Sətirlər bənddə leysan.
Dünyaya bir də gəlməz,
Heydərim qəlbdə insan!

* * *

Özünün son sözündən,
qadın gedir özündən...
Qıcolma tutur onu,
izdihamı, ordunu
Yara-yara insanlar
Qadını aparırlar,
İzdihamın içində
Ayaq altda qalanlar,
Ürəyi qısılanlar,
on beş nəfərə çatır.
Say davam edir, artır.
Hər şey bitdi bir dəmdə,
Bir həftəlik matəmdə,
həyatında olanlar,
Ağır və şux zamanlar
Görüntüdə, ekranda...
Hər zamanda, hər anda,
böyük izlər görünür!
O yaşayır! O ölmür!
İzi olmayan insan,

Ölər, köçər dünyadan!...
Tükənməz izləriylə,
Silinməzdir həyatdan!!
Hikmətli sözləriylə,
Silinməzdir həyatdan!!
Mənim sönməz Günəşim!
Qəlbimdə od, atəşim,
Əbədidir, sönməzdir,
O, əvəzedilməzdir!..
O, əvəzedilməzdir!!..





## HAQQINDA YAZMAQDAN QƏLBİM DOYMADI

Ey Ulu xalqının
ulu övladı!
Ey şair Eldarın
yaddaşı, yadı!
Şəninə beş kitab
söz söyləsəm də,
Haqqında yazmaqdan
qəlbim doymadı!

* * *

Sən bir xəzinəsən,
həyatınümman,
Bəşər tarixində
müqəddəs siman
Əbədi olacaq,
yaşayacaqdır,
Sönməz günəş kimi
hər vaxt, hər zaman!

* * *

İrsindən minlərlə
beşliklər yazsam,
Arxivlərdən keçsəm,
illəri açsam,
Qəlbimin söhbəti
tükənən deyil,
Milyonlar bənd qursam,
şeirlər qoşsam!

* * *

Böyük ümmanların
sənsən dərini!
Ürəyin qaynarı,
beynin sərini!
Versə də ömrünü
xalqa xidmətə,
Ötəmməz
bir ildə etdiklərini!

* * *

Qəlbinin öz haqlı
qərardatıyla,
Şərəfli ömrünün
hər saatıyla,
Aşdığın zirvəyə
heç çatan deyil,
Eldar yüz il çapsa
qələm atıyla!

* * *

Elə yaratmışdı
səni Yaradan,
Sifətin nurluydu
Günəşdən, Aydan!
Qəlbimin söz seli
elə coşub ki,
Axarı güclüdür
gur axan çaydan!!





* * *

Sətir ipək yolu,
bəndi göy Xəzər,
Birləşib bir olsa
Egey, göy Xəzər,
Könül sellərimin
özündə itər,
Axı ümman deyil,
Egeylə Xəzər!!

* * *

Sinəmin özündə
qurmusan yurdu,
Sənli ürəyimi
basammaz ordu!
Haqqında yazmağa
söz axtarmadım,
Söz özü binəsin
sinəmdə qurdu!

* * *

Gəncliyin özündən
vurğunun oldum,
Alışdı qəlbimdə
köz yavaş-yavaş!
Haqqında yazmağın
çılğını oldum,
Yetişdi qəlbimdə
söz yavaş-yavaş!

* * *

Anbaan qaynadı,
anbaan daşdı,
Artdıqca qəlbimdə
köz yavaş-yavaş,
Elə bil mənimlə
doğma qardaşdı,
Tutdu əllərimdən
söz özü birbaş!

* * *

Elə alışdım ki,
qəlbimdə birdən,
Dünya gözlərimdə
qaynadı daşdı,
İllərlə qaldığım
təmkin, səbrdən
Söz özü çıxardı,
qəlbimdə daşdı!!...

* * *

Ürəkdə söz dözmür
əlimdə qələm,
Duyğulu sözlərə
mən bələm-bələm,
Elə bələnmişəm
qədərsiz, həddiz,
Tutub ürəyimi
sözlər sərhədsiz!





* * *

Kükrəyir, kükrədir,
yanır, yandırır,
Titrəyir, titrədir,
dinir, dindirir,
Qaynayır, qaynadır,
enir, endirir,
Elə yetişib ki,
barlı, bəhərli,
Qələm gur sözləri
ürəkdən dərir!!

* * *

Durub tamaşaya
ilham pərim də,
Qoparıb sözləri
mən öz əlimlə,
Özüm düzürəm ki,
sətirə, bəndə,
Tarixə köçməkçün
iş, əməlimlə!

* * *

Örnəyi götürdüm
ulu Dahidən,
Ölçülü sözləri
mən İlahidən,
Pay aldım, topladım
ürəyim boyu,
Oldum söz mülkünün
qərargahı mən!

* * *

Sinəm də köz salan
kədər-qəm də söz,
İllərlə uğurum,
qələbəm də söz!
Böyük müəllimim,
öyrətmənim də,
Həyatda şagirdim,
tələbəm də söz!

* * *

Qəlbimin incisi,
incidəni söz,
Dağlayan, dağını
dincəldəni söz,
Düşməndən, yağıdan
qəlp yazarlardan
Eldarı qoruyan,
cangüdəni söz!





## ƏDƏBİ YOL SÖZDƏN KEÇİR

***Şairə ilhamdan maya gərəkdir!***
***Anasız körpəyə daya gərəkdir!***
***Hər yerindən duran şairəm deyir,***
***Adamın üzündə haya gərəkdir!!***

**Mikayıl Müşfiq**

Böyük Qafqaz dağına
səngər demək olarmı,
Bir xalqın dayağına
səngər demək olarmı,
Soruşuram mən ona,
səngər-səngər
deyəndən!
Onun duz-çörəyini
axşam-səhər
yeyəndən!
Soruşuram mən bunu,
düşüncəmin özündən,
Çörəyini itirsən,
vallah, gələr gözündən!
Ulu Heydər ömrünün
axşamı, gündüzündə,
Bu bənzərsiz insanın
qayəsinin özündə,
Uca dağlar qüruru,
dağların vüqarı var!
Ana torpağa, yurda
danılmaz ilqarı var!

Bir qədər məsul, mənsub,
olmaq gərək bu işdə,
Heydər haqda yazmağa
gərək böyük şəriştə!
Səriştəli, səriştəsiz
insanlar,
Məsuliyyət dərk etmədən
yazanlar
Gərəkdir girməsin
söz meydanına,
Gərəkdir uymasın
söz şeytanına,
Qaynayıb qalxmırsa
qəlbdə tavana,
Uymaq lazım deyil,
sözün tovuna,
Birdən özün düşər
öz tilovuna,
Dönərsən cəncəlli
söz girovuna,
Birdən söz aldadar,
tovlayar səni,
Sərçə cələsiylə
ovlayar səni!
Söz meydanında nər,
aslanlar gərək!
Qəlbi sözlə dolu
insanlar gərək!
Sözün ilişgisi,
bəndi ayrıdır,





Söz bilən insanın
fəndi ayrıdır!
Söz içində yanan
düşüncən varsa,
Sözlərdən qəlbində
işgəncən varsa,
Yenə də yazmağa
tələsmə, gözlə,
Qol-boyun çıxacaq
söz özü sözlə!
Bir insan qəlbinə
varıbsa qeybdən,
Haqqında söz özü
qurubsa meydan,
Onda yazmalısan,
o, sənlik deyil,
Yazar ulaq, sözsə
çəmənlik deyil!
Sözü otlamaq, nə
otarmaq olmaz,
Söz ağızdan çıxsa,
qaytarmaq olmaz!
Şirin söz yazarsan,
adından qalar,
Acının qəlbində
dadından qalar!
Böyük söz mülkünə
salsan acılıq,
Alçaldar şəxsini,
verməz ucalıq!

Söz tanıyan deyil
qardaş – bacılıq,
Yeniyetməlik, nə
cavan – qocalıq,
Düzümün düz seçsən,
düzüləndi söz,
Dilin bilsən, qəlbdən
üzüləndi söz!
Zorla min söksən də,
sözü düzülməz,
İçində od salar,
özü üzülməz,
Sözə ehtiramla
yanaşmaq gərək,
Sözlə ehtiyatla
danışmaq gərək!

* * *

Söz qədrini bilə bilsən,
Danışdırar, danışar söz!
Söz qeydinə qala bilsən,
Alışdırar, alışar söz,
Gərəksizdir canfəşanlıq,
Qazanarsan pərişanlıq.

* * *

Bar verməyən ağac kimi,
Sözü – sözə tıxac kimi,
Calaq-calaq calayanlar,
sözü sözə culayanlar,
Qoy yığışsın
söz bağından,





Bilsin ki, söz
yarpağından
ha yığsa da
qucaq-qucaq,
Doldursa da
min qab-qacaq,
Az bir vaxtda
çürüyəcək,
Sözsüz qalıb
Kiriyəcək.
Qəlbdə yoxsa
söz ocağın,
Boş qalacaq
künc-bucağın,
Yoxsa qəlbdə
yanacağın,
Sönük qalar
od-ocağın,
Söz-söz bişib
yanmaq gərək,
Söz-söz sözü
qanmaq gərək.
Sözlər bitməz
biçənəkdə,
Söz deyildir
kəpənək də!
Söz gərəkdir
ürək, canda,
Söz gərəkdir
ola qanda!

Söz tilovla
tutulan döy,
Söz bazarda
satılan döy!
Ürəyimdir
sözə meydan,
Oynamasın
sözlə şeytan!
Söz deyəmməz
oranqutan,
Hər nabələd,
yoldan ötən!

* * *

Yan ey ürək,
gözlərimdən
qora çıxart!
Tərlan-tərlan
dür sözləri
tara çıxart!
Uçur gəlsin qatar-qatar,
Ömür bitər, ötər qatar,
Göndər sözün yetişmişin,
Kal söz ilə yoxdur işin,
Kal sözləri
korlar qapar,
Özgə bağın
talar, qapar,
Sən özün din, söz-söz danış,
Sən özün yan,
köz-köz alış,





Öz közündə bişir göndər,
Zamanında düşür, göndər.
Qələm əldə, kağız öndə,
Danışan dil, ağız səndə,
Od axtarır, dad axtarır,
Eldar təmiz ad axtarır!!
Yad sözündə
gözüm yoxdur,
Söz pərimdə
dözüm yoxdur!
Ver, boşaltsın xəzinəni,
Yük olar, incidər səni!
Tut əlimdən, qaldır məni,
Sözlərin ucaldır məni,
Aman verme amansıza.
Aman vermə
duman sıza
Şair Eldar yollarına!
Öz hökmünə, qərarına
Sadiq qalmaq borcumuzdur!
Qeyrət bizim
ölçümüzdür!
Ulu Heydər yolundayıq
sən də, mən də,
Onun İlham oğluylayıq
sən də, mən də.
Sən duyğuda ürəkmi var,
Səndən güclü
köməkmi var?
Sözə vurdum elə cilov,
Mənimkidir bu böyük ov!

Ha xərcləsəm bitən deyil,
Kimsə mənə
yetən deyil!
Mülkün açar bəndi məndə,
Nizaminin
zəndi məndə...
Sözsüzlərə sözüm birdir:
«Gəlin, alın!»
Yerli deyil daha yersiz
qalmaqalın!
Seçilməkçün söz içində,
Yanmalısan köz içində,
Yanan yanıb bişirirbdi,
Söz camına düşürübdü.
Elə yığıb düzüm-düzüm,
Dür sözləri
çözüm-çözüm,
Sözü çözmək, səfə düzmək,
Sözü yazmaq,
rəfə düzmək
Hər yazarın işi deyil,
Söz oğrusu kişi deyil!!
Sözü gərək öz qəlbində
bişirəsən,
Sözü gərək
öz qəlbindən
düşürəsən,
Gər əl açsan dilənçitək,
Tayan yanar
yalançıtək!





Söz xoşlamaz
yalan, kələk,
Biçər səni kərəntitək,
Yaş tökərsən
ətək-ətək,
Söz mülkündə
mənəm günəş!
Qəlbimdədir
bu od, atəş!
Sən sözə
bənd olma,
qardaş,
Yazana
bənd olma,
qardaş,
Söz deyərəm,
bəndin uçar,
Söz deyərəm,
rəngin qaçar,
Söz deyərəm
səni qucar,
Yedəkləyər, səni qaçar.
Sən qoynunda
qanad açar,
Sən qoynunda
dağdan uçar,
O sağ qalar,
sən isə yox,
Döyüşərsən,
çıxarsan lax,

Ayağa dur,
gözümə bax,
Ya bardaş qur,
sözümə bax.
Mən söyləyim,
sən də köçür,
Ədəbi yol sizdən keçir!





## ƏKSİN GÖZLƏRİMDƏN İTMİR BİR AN DA

***Tarixin özündə dalğalanan səs,***
***Onun yaddaşından silinə bilməz!***

**Müəllif**

***Ana Vətən, ata Heydər,***
***Birləşibdir bir can kimi,***
***Əbədiyyət övladıdır!***
***Heydər – Azərbaycan kimi!!***

İlyas Tapdıq

Qurdun məbədini
Sən xiyabanda
Əksinsə gözümdən
itmir bir an da!
Hər zaman qəlbimdə,
gözümdəsən Sən,
Canımda, qanımda,
özümdəsən Sən.
Ürək də sənindir,
can da sənindir,
Damarımda axan
qan da sənindir.
Həyatım da Sənsən,
varlığım da Sən!
Kimsəni sevmədim
varlığımla mən,
İlahi duyğum da,
sevgim də yenə,

Ölüncən bağlıdır
Sənin irsinə!
Hər zaman yaşayan
ürəkdə, canda,
Onu döyündürən
damarda, qanda,
Yenə Sən olassan,
irsin olacaq,
Tükənməyən duyğun,
hissin olacaq!

* * *

Yazıb-yaratmağa
qarışdı başım,
Sənin görüşünə
gələ bilmədim,
Borcumdan çıxmağa
qarışdı başım,
Sənin görüşünə
gələ bilmədim.
Kəsdilər qarşımı
nadanlar mənim,
Günahsız zindana
atanlar mənim,
Önümdə sədd olub
sərhəd oldular,
Heyif ki, Sən getdin
onlar qaldılar!
Adından güc aldım,
eşqindənsə təb,





Yaşatdı məni tək
bir böyük mətləb,
Ki, yazım şəninə
Sönməz Günəşi!
Görsənsin qəlbimin
odu, atəşi!

* * *

Zindandan da çıxdım
Sönməz Günəşlə,
Qəlbimdə qaynayan
odla, atəşlə!
Çatdım mətləbə də,
mən şöhrətə də,
Şairlik deyilən bu
qüdrətə də!
Tək Sənə yetişə
bilmədim, neynim,
Tək sənlə görüşə
bilmədim, neynim?...
Tanrıdan tək budur
küsüm – gileyim:
Sənin görüşünə
yubatdı məni,
Nə olsun ki, qorxmaz
yaratdı məni,
Yaşadın qəlbimdə
mənim sərhədsiz,
Yaşatdın qəlbimdə
məni sərhədsiz.

Yenə yox qəlbimin
sərhədi, səddi,
Yox başqa ağrısı,
kədəri, dərdi,
Yoxluğun qəlbimdə
kədərdi, dərddi!

* * *

Məhkumluğum
qaldı elə
üstümdə,
Yetişmədi
sənə yanğım,
tüstüm də.
Qəlbimdəki sözlə
yandım özüm də,
Qənşərinə
yetişmədi izim də!
Dodağında mənə
nur gətirən də,
Ürəyində mənə
yer göstərən də
Yalan çıxdı
ilqarına, vədinə,
Ətrafında döndü
sərhəd, səddinə,
Vətənin içində
vətənsiz qaldım,
Dustaqtək, gələnsiz,
gedənsiz qaldım...





İndi nə səddin var,
nə də sərhədin,
Budur, önündəyəm
böyük məbədin!
Ruhunla danışmaq
hökmmüş mənə,
Sənlə görüşməmək
məhkummuş mənə!!...
Ömürlük cəzaya
dönən məhkumluq
Tanrının hökümüdür,
Deyil hakimlik!...
Budur, indii Sənin
görüşündəyəm,
Müqəddəs məzarın
qarşısındayam!
Əğər görüşünə
çata bilsəydim,
Şərəflə dolardı
ömrün yolları,
Sənin əvəzinə
yolda ölsəydim,
Əsərim, sədamsa
çatardı barı!..
Bir bayatı düşür
yadıma burda,
Baxdıqca bu ulu
torpağa, yurda.

* * *

Budur, mən durduğum
yerdəcə həmən,
İnsanlar dayanıb
dünyadan gələn!
Ulu Türkoğlular –
Necdət, Ərdoğan,
İhsan Doğramaçı,
Dəmirəl Süleyman!
Gürcüstan, Rusiya,
qardaş ölkələr,
Dünya dövlətləri,
bütün bölgələr,
Axdı dəstə-dəstə
müsafirlərin,
Ziyarətli keçdi
axşam, səhərin!
Sən ölmədin,
Sən qeyb oldun,
Aya döndün, –
Günəş odun!
Sən ölmədin!
Sən doğuldun !!
Döndün Sönməz
Günəş oldun!!

* * *

Ölümünlə də məni,
borclu qoydun önündə!
Bütün cahan baş əydi
məzarının önündə!





Gözlərimin leysanı
ürəyimi doldurub,
Ayaq üstdə ölüyəm,
ruhun dartıb, qaldırıb!
Borclarını vermədən,
Əzrayılla İşim yox,
Qatil düşmən qanına
batırmalı dişim yox,
Hamısının borcunu
verəcəyəm qələmlə
Ki, səsləri bir olsun,
bütün dünya-aləmlə!

* * *

Bu mənəm, mən döyəmmi?.
Özüm özümdəyəmmi?
Sanki yoxam özümdə,
Düya mənim gözümdə
Dönüb boş bir fəzaya,
Elə bil ki, düşmüşəm
Görünməmiş qəzaya!
Beynimi sancır fikir,
Qəlbimdə qançır fikir,
Alır məni özümdən,
Dünya düşür gözümdən!
Yaşayımmı, ölümmü?..
Soruşuram özümdən!..
Özüm tab, dözümümü,
Daşıyıram özümnən,
Yoxsa dözümsüz, tabsız,
Necə qalar ürəyim,

Yoxsa dözümsüz, tabsız,
Qalmaz, ölər ürəyim!..
O ölərsə, məni kim
yaşadacaq, kim axı,
Qəlbimdəki yükümü
boşaldacaq kim axı?!
Fikirlərin içində,
qəlbimdəki seçimdə,
Gəlir gözüm önünə
bu dünyadan köçüm də!
Axı nə mənası var,
yüz yaşa,
min yüz yaşa,
Ən yaxşısı odur ki,
onu ölümsüz yaşa!
Əyrilikdən nə qalar,
düz yazılan sətirdə?
Əyri olan nə olar
düz yazılan sətirdə?..
Düşüncəmin özündə
böyük götür – gətirdə,
Gözlərimin önündə
zaman özü ötür də!..
Mən baxıram zamana
içimdən yana-yana,
Zaman bitdi deyirəm,
yaman ötdü deyirəm!
Ancaq heç bilmirəm ki,
zaman ötmür, ötürür
İnsanları dünyaya
o gətirir – götürür!





Bu gün səni apardı,
sabah zaman mənimdi,
İndi mən zamanınam,
yoxsa zaman mənimdi?!
İnsanlar dayanıblar
zaman üçün növbəyə,
Hər bir insan məhkumdur
zamanında ölməyə!
Bitən, bitirən zaman,
yetən, yetirən zaman,
Zamana gücü çatmaz,
insan olsa daümman!
Ona görə: zamanın
qədrini bil, – deyiblər,
Ağlayan analar da
zamana dil deyiblər!
İnsan zamana bağlı,
zaman da insanındır,
Zaman döyünən ürək,
zaman sənin canındır!
Zamanın qədrin bilsən,
o da səni qoruyar,
Sən ona yarayarsan,
o da sənə yarayar,
Sən onu qorumasan,
o da səni qorumaz,
Sən onu doyurmazsan,
o da səni doyurmaz,
Gözü açıq aparar
bu dünyadan yarı ac,

Görərsən doymamısan,
yarı toxsan – yarı ac!...
Bu dünyadan doyana
rast gəlmədim
heç zaman!
İnsanı doyurmadı,
özu, gözü
ac zaman!
Zaman insan önündə
sanki, bir tilov olub,
Zaman bir əjdahadır,
insan dönüb ov olub,
Zaman üçün fərqi yox,
istərsən aslan doğul!
Bir az geci – tezi var,
onunkusan, ay oğul!
Zamanın hər şeyi var,
sənsə lüt doğulmusan!
Fərqi yoxdur zamançün,
qızmısan, oğulmusan.
İstədiyin zamanda,
elə udar ki, səni,
Qoymaz heç yerə düşə,
inan bircə tikəni,
Şahları udub gəlib
bu bəxti qara zaman,
Əzəldən vərdişlidir,
insan udmağa zaman!
İnsana qalan ancaq
yaşamağı, ölməyi,





Bu dünyada qalacaq
qoyduğu hər əməyi!
Çalış ömrünü yaşa –
şir kimi, aslan kimi,
Heç olmasa desinlər
yaşadı aslan kimi,
Öləndə də bir ad qoy,
desinlər aslan ölüb,
Adsız köçsən, fərq etməz,
insan ya məstan ölüb!
Səni aparan zaman
məni də aparacaq,
Şahları dartdı aldı,
məni də qoparacaq!
Ancaq hələ toxunmur,
çünki ona borcum var,
Yazacağam haqqında -
nə qədər ki, gücüm var!
Borcumu verən kimi,
yığışdırıb köçümü.
Gözləyəcəm zamandan
bu dünyadan köçümü
Ancaq bu dünyadan da,
elə-belə köçmərəm,
Mən sənin qisasını
Əzrayıla keçmərəm!
Ya mən də sənin kimi
vuruşub öləcəyəm,
Ya da o Əzrayılı
dünyadan siləcəyəm!!

## YAŞA AZƏRBAYCAN, YAŞA İLHAMLA

Yaşa Azərbaycan,
Yaşa İlhamla!
Böyük gələcəyə
böyük inamla.
Aparanın odur!
Xoşbəxti sənsən!
İlhamın tək varı,
dövləti sənsən!
Dur ayağa!
Dur, ey millət!
Səninkidir
bu şan-şöhrət!
İlhamla çatdığın qüdrət
Edəcəkdir səni xobəxt!
Ayağa dur,
Azərbaycan!
Sən bir cansan,
İlham bir can!
Qərar tutmur
əldə qələm,
Mən sözlərə
bələm-bələm
Bələnmişəm
zaman-zaman!
Bitmək bilməz
kitablara,





Ələmmişəm
zaman-zaman!
Ürək yanır,
söz üyünür,
Söz yanır, ürək döyünür,
Ürəyimdə əsər yatır,
Söz dolu ləl – gövhər yatır,
Ha yazıram
tükənmir söz,
Dərdlərimi
çəkəmmir söz,
Yanır, üzülür qəlbimdən,
Axır, süzülür qələmdən!
Yazıram ki, illərə yüz,
Gələcək nəsillərlə söz,
Qoy yaşasın zaman-zaman!
Yüz illərlə hər tar-kaman,
Nəğmə qoşsun sözlərimə,
Gənclər düşsün izlərimə!

* * *

İlhamdan aldım ilham,
Qəlbimdə artdı inam,
Xalqın verdi ona səs,
Mənə isə təb, həvəs!
Bu şərəfə yazmasam,
Qəlbim özü dincəlməz,
Ulu Heydər oğludur,
qəlbi xalqa bağlıdır,
Ulu yurdun övladı,
aranlıdır, dağlıdır!

Uca dağ vüqarlıdır,
Ulu Heydər dərslidir,
Yaratmaq həvəslidir,
Onun baxışlarında.
Cəsarət var, hünər var,
Onun çıxışlarında.
Ümid, əzm var, zəfər var!
Mənimsə ürəyimdə
Sevinc, qəm var,
qəhər var!
Sevinirəm önümdə,
var İlhamtək
mayakım!
Ürəyimdə, canımda,
Böyük arxam
dayağım,
Qəmlənirəm içimdə
Varım ikən
maymakım,
Millətimin içində,
Qaniçənim,
sarsağım,
Axır ki, nə etməli,
Kimə nə öyrətməli?
Hər kəsin öz təməli,
Əsli, nəsli, əməli,
Özünə də çatacaq,
Qismətdən
kim qaçacaq?..





Qaçammaz,
mümkün deyil,
Qaçsa, heç
düzgün deyil!
Bir palaza bürünmək,
El dalınca sürünmək
Söyləyibsə atalar,
Burada nə xəta var?!..

## DANIŞAN ŞƏKİLLƏR

Həyəcan siqnalı
eşidirəm mən,
Sanki danışıram,
şəkillərlə mən,
Hər bir səhifədə
yeni şəkillər,
Elə bil qəlbimi
göyə çəkirlər…
Həyəcan siqnalı
çalınır kimi,
Qəlbimə qəm – kədər
çalanır kimi
Böyük sıxıntı var
ürəkdə - qəlbdə,
Sanki sönüklənib,
ilham da, təb də.
Ürəyimə ancaq
qəm-kədər dolur,
Düşüncəm içindən
beynimi yolur,
Şəkillər zənnimə
nəsə söyləyir,
Yaxına gəlirəm,
nəsə dinməyir…
Ürəyim döyünür,
sıxılılam mən,





Sanki havam çatmır,
boğuluram mən!
Yaman narahatdı
divarda şəkil.
Böyük həyacandan
xəbərdar şəkil.
Yaman məyus baxır
üzümə şəkil,
Nəsə pıçıldayır
gözümə şəkil!
O xəbər duyubdu,
o taydan, xəbər,
Kaş ki, xoş ünvanla
çataydın, xəbər!
Yolda da mənlədi,
evdə də mənlə,
Elə bil, bir olub
çöllə, çəmənlə,
Axı nə söyləyir
mənə şəkillər?
Şikayət eyləyir
mənə şəkillər,
İçimə məyusluq
salır şəkillər,
Həyacan təbili
çalır şəkillər!...
Mən nəsə duyuram,
nəsə qanıram,
Susuz səhradayam,
nəsə yanıram!

Qəlbimin yanğısı
qədərsizləşir,
Səbəbi bilinmir,
səbəbsizləşir!
Gözlərim yol çəkir,
yol gözləyirəm,
Bu yolu gör necə
il gözləyirəm!
İnamımın özü
inamsızlaşıb,
Elə bil ki, zaman
amansızlaşıb,
Hara baxıramsa,
leysan görürəm,
İzdiham görürəm,
insan görürəm!
Sanki tək qalmışam,
dəryada yalqız,
Cəsədə dönmüşəm
əlsiz, ayaqsız!
Elə bil quruyub
gözümdə yaş da,
Sözümə baxmayır,
beyin də, baş da!
Həyacan siqnalı
çalır şəkillər,
Düşüncəmi məndən
alır şəkillər!
Saatlarda durub
tamaşasına,





Baxıb şəkillərin
danışmasına,
Özümü özümdə
tapa bilmirəm!
Qara fikirlərdən
qopa bilmirəm!
Axı nə deyirlər,
mənə şəkillər?...
Az qalır danışa,
dinə şəkillər!...

* * *

Hər gün yarım saat
önündə səssiz,
Danışan da səssiz,
dinən də səssiz,
Ancaq ürəyimdə
narahatlıq var,
Təhlükə gözlənir,
Var! O artıq var!
Sanki xəncər çəkir
üstümə fikir,
Elə bil qəlbimi
qoparır, sökür!
Meylimi salsam da
şəraba, meyə,
O da yetişməyir,
dada, köməyə!
İçimdəki şübhə
itmir ki, itmir,

Şəkillər gözümdən
getmir ki, getmir!
Fikir, düşüncəm də,
məlal da şəkil,
Qoyub məni əcəb
əhvalda şəkil,
Oxuya bilmirəm,
yaza bilmirəm,
Nə danışmır, nə də
dözə bilmirəm,
Qəlbimlə əlləşir
fikrim, sözüm də,
Elə bil qeybdəyəm,
yoxam özümdə,
Böyük təhlükə var,
önümdə, böyük,
Haradan kök salıb,
qəlbimdə bu yük?..
Gözümə göz dəyib,
ürəyimə köz!
Vaxtında yetişib
köməyimə söz!...
Düşüncəmi çəksə,
sətirə, fəslə,
Yazsam əsərimi
təblə, həvəslə
Sonra çatsa belə
həyatım sona,
Xalq üçün qoyduğum
şöhrətə-şana





Görə rəhmət deyər
xalq, millət mana!
Axı necə köçüm
içimdən, hara?
Yenə qanlar axır
qəlbimdən qara!..

* * *

Çağırıb özümü
dözümə, taba,
Başımı qatsam da
neçə kitaba,
Nə oxuya bildim,
nə də dincələ,
Hələ düşməmişdim
belə cəncələ!
Qələm də əlimdə
əsir - yesirdi,
Bunları yazmağa
o tələsirdi!
Şəkil dinməsə də,
oxudum onu,
Çatırdı bir dahi
ömrünün sonu ...
Bunu necə deyim,
kimə, nə üçün?
Ağladım içimdə
mən için-için!...
Axı yol gözləyir,
iz gözləyirdim,

Hər bir addımını
mən izləyirdim.
Görüşə getməyə
əlimdə "Xəmsə",
İlhamım, təbimlə
bu təşəbbüsə
Hələ 74-dən
vermişdim qərar!
Arayıb – axtarıb
mən birər-birər,
Uşaqlıq, gəncliyi,
cavanlığından,
Mərdlik, cəsurluğu –
qoçaqlığından,
Söz-söz öyrənmişdim,
söz-söz yazımışdım.
Söz-söz sətirlərə
elə düzmüşdüm
Ki, özü oxuyub,
gəncliyə dönsün,
O, özünü mənim
qəlbimdə görsün!
İndii necə dözüm,
bu dərdə, necə?...
Ömürlük qəlbimdə
qaldı işgəncə!..
Dünyanın əbədi
məhkumu oldum,
Mən nə axtarırdım,
nələri buldum?...





## BƏLİ, SƏN PEYĞƏMBƏRSƏN

İnsan gəlir
bu dünyaya,
ömür sürə –
gün keçirə,
Tarixin daş yaddaşına,
bir ad yaza –
ün köçürə.
İnsan gəlir
bu dünyaya
yaşatmaqçün
yaratmağa,
İnsan gərək
bu dünyadan
əzabları
daratmağa!
Yaranandan
bu dünyaya
İnsan gəldin,
insan getdin,
Qurduqların
gəlmir saya.
Elə bilmə ki,
Sən getdin!
Hər ürəkdə
bir əksin var,
Hər ailədə
bir kəsin var,

Ana yurdda nəfəsin var,
Bar ağacı, barı da Sən,
Oldun xilaskarı da sən!
Unudarmı səni Vətən?!
Sən ölməzsən, əbədisən!!
Hara baxsam, izlərin var,
Gözlərimdə gözlərin var,
Hər addımda naxışın var,
Sənin qaynar
baxışın var!
Görən mənəm,
gözüm sənsən!
Ölən mənəm,
özüm sənsən!
Cismən ölmək ölüm deyil,
İnsan ölür ancaq ruhən,
Ruhunla Sən əbədisən,
Yaşadırsan məni də sən!

* * *

Təkcə Xəzər dənizi,
danışsa Sən barədə,
Yerləşməzdir yazısı,
hətta göyə – yerə də!
Ancaq ki, dinmir dəniz,
çünki Sənsizdir dəniz,
Dənizin gözlərindən
oxuyum, yazım gərək,
Qəmdən dili tutulub
daha o dinməyəcək,





Sirrini dəniz heç vaxt
heç kimə verməyəcək,
Sən bilirdin dənizdə
dalğaların dilin də,
Dəbi, dəbdəbəsini
hər obanın, elin də!
Sənin qədər duyan yox
nəğməni, nəğməkarı,
Elə bil səndə idi
ürəklərin açarı,
Ürəyində kök saldın
körpənin, yaşlının da,
Öz yerini tək saldın,
ürəklərin başında!
Dövlət qurdun sarsılmaz,
Ordu qurdun basılmaz,
Oğul qoydun
milyonların başında,
Bir kimsədən
çəkinməz, nə qısılmaz,
Parladı Günəş kimi
Azərbaycan sayəndə,
Sönməz Günəş kimi də
hər bir zaman sayəndə
Çiçəklənən yurdum da
Basılmaz, mərd ordum da.
Adınla qürur duyub,
hər zaman fəxr edəcək,
Çox yazarlar əsərin
şəninə həsr edəcək!

Sən tarixsən, yaddaşsan!
Silinməzsən, yaddaşdan!
Əbədisən, əbədi!
Uyuduğun məbədi
Əsrlərlə insanlar
ziyarət edəcəklər,
Əsrdən əsrlərə,
yolunla gedəcəklər.
Yenə xiyabandayam,
ulu ruhun önündə...
Əklillər dövrə qurub
yenə yanın-yönündə,
Təkcə Zərifə ana,
üzün çevirib yana!
Axı bura köçməyi
rəva bilmirdi sana!
Səninsə əksin gülür,
elə bil ki, dil bilir...
O nəsə söyləyir,
o nəsə deyir,
Ürəyim ağrıyır,
sinəm göynəyir,
Burada canlıdır,
çiçək də, gül də!
Bir dünya kəşf etdim,
mən bu özüldə!
Burda bir həyat gördüm,
yaşayan hər çalarla,
Sanki adam danışır,
burdakı qönçələrlə,





Sən həyat gətirmisən,
bu cansız xiyabana,
Sən köçəndən səngimir
buradakı canlanma!
İnsanların axını,
səngimir, səngiməzdir!
Bu yurda gəliş-gediş,
çəkilmir, çəkilməzdir
Bu abad düyamızda,
Bu məbəd dünyamızda
Ən müqəddəs yerimiz!...
Buraya hər birimiz,
Görüşünə gələcək,
önündə baş əyəcək,
Səni yad edəcəyik,
Səni yad edəcəyik!
Sənlə ölə bilmirik,
sənsiz qala bilmirik,
Torpaq elə qucub ki,
Ondan ala bilmərik!...
Ancaq ürəyimizdə,
silinməz, əbədisən,
Qurmusan xiyabanda
Peyğəmbər məbədi Sən!
Bəli, Sən Peyğəmbərsən,
Allahım göndəribdi!
Karvanını da bura
O, Özü göndəribdi!...

## ƏN MÜQƏDDƏS ARZU - KAMA YETİŞDİM

Qurtarıb beşliyi,
bu "Xəmsə"ni mən,
Doğuldum anadan
sanki yenidən..
Ən müqəddəs arzu –
kama yetişdim,
Heç vaxt sönməz
təb, ilhama yetişdim!
Söz-söz yandım,
sətir boyu, bənd boyu,
Adım düşdü
böyük bir sənət boyu.
Tanrı mənim
zəhmətimə qıymadı,
İstəyimi
heç gözümdə qoymadı.
Sözlər özü
qəlbim boyu qaynadı,
Sevinc oldu
gözlərimdə oynadı,
Poeziya aləmində
boy atdım,
«Sönməz Günəş»
adlı əsər yaratdım!
Sona çatdı
sözlərimin siqləti,
Tanrı verdi
mənə böyük qisməti!





Sevincimin
sonu yoxdur – qədərsiz,
Dərdli qəlbim
bu dünyada kədərsiz.
Bundan böyük arzu,
istək, kam hanı? ...
Bundan böyük, sonsuz
təb, ilham hanı?...
Bu dünyanı
qollarımla qucmuşam,
Yerdə döyəm,
səmadayam, uçmuşam!
Sinə döyən
yazarları keçmişəm,
Poeziya
aləminə köçmüşəm!
Hər qaynayan
bulağından içmişəm,
Ulu Heydər
qaynağını seçmişəm,
Vermək üçün
bu millətə borcumu,
Zaman-zaman
boşaltmaqçün içimi
Özüm etdim
bu uğurlu seçimi,
Bitirsəm də
beş kitablıq dərcimi,
Heç boşalmış
hesab etməm içimi...

Qəlbimdədir
ürəyimin əkizi,
Çoxdur hələ
qəlbimin cer-cehizi!...
Söz elə bil
alışqandı içimdə,
Qəlbim hələ
çalışqandı içimdə!
Elə gərib
Sinəsin də, döşün də,
İlham pərim
qalıb öz biş-düşündə,
Qərarım da
yoxdu onu yanıltmaq,
Ya özümü,
ya da onu unutmaq.
Bu beş kitab
ümmandan beş damladı,
Davam edir,
yol hələ İlhamladı!
Minbir kitab
yazsam belə, çox azdı,
Sinəm boyu
sözlər qotaz-qotazdı!
Xəbərdaram
qəlbimdəki düzümdən,
Qala qurram
içimdəki sözümdən!...
Hələ sözün
qazmağına çıxmasam,





Söz mülkünün
söz dağına qalxmasam,
Ulduzlardan
doğma yurda baxmasam,
Bayrağını
ulduzlara taxmasam,
Borc içində,
borclu qallam dünyada,
Öz – özümü
soraq allam dünyada!...

## YAZMALI NAMƏM VAR AZƏRBAYCANA

Yazmalı naməm var
Azərbaycana!...
Bir bəyannaməm var
Azərbaycana!...
Qalmaq üçün
Nizamilər içində,
Qoymaq üçün köç
Nizami köçündə,
Önümdə çox günüm,
ayım, ilim var,
Boşaltmalı qəlbdə
dəniz, gölüm var...
Boşaltmasam,
axirətdə zülüm var,
Mən kiməm ki,
Tanrı yazıb:
Ölüm var!..
Əzrayılla
düşənəcən davamız,
Sözlə dolsun gərək
boşqab, tavamız!
Söz bişirək,
söz düşürək,
söz dadaq,
Dadan çoxdur,
Qoy bir az da
biz dadaq!





Nə apardı
Cabir Novruz,
Kəsəmən,
Söz yolunu
keçmək üçün
kəsə mən,
Söz mənimdir
cilovu də əlimdə,
Getməlidir
cilovunda, dilimdə.
Mən sözləri
yaşatmışam
qəlbimdə
Ki, yaşatsın
məndən sonra
məni də!...

## MƏN TANRI ELÇİSİYƏM

Şeytanların feliylə
alovdan, oddan
keçdim,
Şeytanların əliylə
mən qazamatdan
keçdim,
Yaradan yaradıbdı,
mən Tanrı elçisiyəm,
Bir dəfə doğulmuşam
bir gün də öləsiyəm!
Ölməz poeziyamla
mən xoşbəxt
gələcəyəm,
Ulu Tanrı məsləhət
biləndə öləcəyəm,
Hər bir çətin zamanda
qorudu Tanrı məni,
Çıxartdı qazamatdan
Allahın əmri məni!
Tanrıma baş əyməkdir,
müqəddəs borcum
ancaq,
Xalqımı da, səni də
ancaq o qoruyacaq,
Qorumasa İlahi,
şeytanlar didər bizi,





Üzümüzə gülsə də
arxadan güdər bizi
Ki, elə fürsət keçsə
arxadan vurmaq üçün,
Bu xalqın, bu millətin
qəddini qurmaq üçün
Nələrə əl atmadı
bu şeytan balaları,
Xalqı satıb soymaqdır
dərdləri, bəlaları,
Kimi ortada ötür,
kimi arxada güdür,
Umacaqları birdir;
ya ölüm, ya da öldür,
Əl qatmaq gərək deyil
naqislərin qanına,
Özləri çatacaqlar
Tanrının divanına.
Əlağacı, ayaqçı,
aralıqda şütüyən,
Qane olmaz kətəylə
keçmişində küt yeyən!
Zaman özü buraxıb
bunları özbaşına,
Başları dəyəcəkdi
Zamanın da daşına,
Xalqına, millətinə
öz qohum-qardaşına
Düşmən olan kəslərin
öz əliylə başına

Keçirəcək kəndiri,
onu seyr edən zaman,
Köçürəcək hamısın
zamanında dünyadan!

* * *

Dünyaya ağıllı baş,
qul – qaravaş da gəlir,
Dünyaya mətin qardaş,
kor qara daş da gəlir.
Ağıllı aqilləşir,
dönür ölməz dahiyə!
İlahi doğulmayan,
dönəmməz İlahiyə!...

* * *

Bu dünyanın özündə,
Min illər – minilliklər,
Yaşayıb da, ölüb də,
kişilər – kişiçiklər!...
Aslan meydanındakı
pişiklər – pişiciklər,
O zamandan bu yana
döl verən kişiciklər
Aradabir ortaya,
atılır aslan kimi,
Əldə görəntək zopa
şırmanır məstan kimi!

* * *

Qəlbimdən düşən sətir,
Bənd axtarır söykənə,
Söz daşıyan söz pərim
sətir gəzir silkinə,





Söykənənlə silkinən
Sətir-sətir bənd qurur,
Sətirlərə tələsən
Sözlər özü bənd qurur!
Elə sökür içimi,
yolur beynim, saçımı,
Tükənməyən bu sözlər
ürəyimin tacımı?!
Ürəyimdən başıma
yol axtaran söz tacım,
İstəyirəm mən sənə
balaca bir sirr açım.
Getməmişdən gəlmişəm
sən getdiyin məkandan,
Gediş-gəliş asılıb,
əldə olan imkandan.
Qarsız dağdan
qar uçmaz,
Mən ölməsəm,
yer qucmaz.
İnsanlar
dinc otursa,
Göy alnamaz,
yer uçmaz!!

## BALACA HEYDƏRİN DƏ GÖZLƏRİNƏ QƏM QONUB

Balaca Heydərin də
Gözlərinə qəm qonub,
Balaca Heydərin də
Gözlərinə nəm qonub,
Bu gün Heydər də çıxıb
Heydərin görüşünə,
Qız nəvələr də çıxıb
Heydərin görüşünə,
Bir qutu endirirlər,
Heydəri gətirirlər…
Deyən bir səs eşitdim,
Qəlbim dondu, üşütdüm,
Dişim dişimə dəydi,
Bu dərd qəddimi əydi,
Boğdu məni hıçqırıq,
içimdə qırıq-qırıq,
Ağladım gizli-gizli…
Millət oğullu, qızlı
Pişvazına çıxmışdı
atalar atasının!
Xalq ayağa qalxmışdı,
almaq üçün qisasın…
Ələ düşsə Əzrayıl,
dişləriylə didməyə,
Ələ düşsə Əzrayıl,
əzməyə əritməyə!





Dodaqlar kilidlənib,
gözlər sanki sönmüşdü,
Bu gün xalq – millət hamı,
Əzrayıla dönmüşdü!...
Qaynar nəfəsləriylə
hirsləri çınqı-çınqı,
Hıçqırıq səsləriylə,
gözləri çınqı-çınqı,
Od içində alovdu,
Bu gün bu xalq,
bu millət!
Necə də dəlisovdu,
qəlb dolu kin –
küdurət!

* * *

Fikirlər qovhaqovdu,
Yanıram, yanğım itmir,
Alovum, çınqım bitmir,
Mənfur qara fikirlər
Düşüncəmi tərk etmir!
Yer gəzirəm, qısılam,
Göy gəzirəm asılam.
Nə yeri tapammıram,
Nə göyü tapammıram!....

* * *

Yanıram öz tüstümə,
Dəniz gəlir üstümə,
Xəfif dalğalarıyla
məni alır özümdən,

Acı göz yaşlarımı
dartıb alır gözümdən,
Qucağımı açıram
mən dənizi qucmağa,
Dənizsə imkan vermir,
heç qolumu açmağa,
Dartıb məni aparır
qəlbinin dərininə,
Birdən gözüm sataşır,
dənizin gözlərinə!
Qəlbimsə qulaq asır,
hıçqırıq səslərinə!...
Dənizin də gözündə
od-alov var, çınqı var!
Dənizin də özündə
çathaçatlı yanğı var!
Dəniz bu ərəsətə,
milyon gözlə ağlayır,
Dəniz bu ərəsətə,
dillə, sözlə ağlayır,
O, mənim yanğımı da,
alır, çəkir özünə,
Mənsə baxa bilmirəm,
heç dənizin gözünə,
İtmişəm özüm axı
Gözlərinin içində,
Qalıb bayatı, ağı
Sözlərinin içində.
Dəniz tufana düşüb,
Mən onun dalğasına,





Dəniz divanə düşüb
Mən onun ağrısına.
Qoşulmuşam ağrımla,
Düşüncəmlə, ağlımla!
Axı dəniz də doğma,
Mən də ona yad döyəm,
Onunçun da o qoymur,
Mən ağlayam, dad deyəm!
Dəniz öz dalğasıyla,
cənazəni aparır,
Dəniz öz dalğasıyla
Həm də məni aparır,
Gözlərim cənazədə,
Mən axında gedirəm,
Mən dənizin içində,
Dalğasında itirəm,
Dənizsə dalğa-dalğa
Məni özündən seçir,
Dənizsə dalğa-dalğa
Mənim gözümdən keçir.
Baxdıqca dalğasına,
Elin böyük yasına,
Çıxan dəniz böyüyür
Gözlərimin önündə,
Axan dəniz döyünür
Ürəyimin özündə.
Qəlbimdə qürur dəniz,
Çiynimdən vurur dəniz.
Əli kürəyimdəkən,
Dəniz ürəyimdəkən,

Dərdimi silib atır,
Qoparır, alıb atır!
Bu dənizin adı Xalq,
Mənsə onun körpəsi,
Qulağımda qalacaq
Hər vaxt onun gur səsi!....

* * *

Xiyabandan dağılıb,
Hər kəs ev-eşiyində,
Dəniz isə dayanıb,
Heydərin keşiyində!...
O dağılmır! O getmir,
Xiyabanı tərk etmir!
Bu dənizin haqqıdır,
Bunu dəniz haqq edir!
Bu dəniz qaynağını
Xiyabandan çəkən döy!
Bu dəniz ayağını
Xiyabandan çəkən döy!
Ulu Heydər əbədi
burada uyuyacaq!
Dəniz də onu hər vaxt
burada qoruyacaq!





## YENİLMƏZ AZƏRBAYCAN, ADINLA YAŞAYACAQ

Sən ömür yollarında
ən şirin məlal oldun,
Qəlbdə necə doğuldun,
əbədi elə qaldın.
İllərə dəstək oldun,
dağlar qədər ucaldın!
Yerişinə çatmadı,
qanad açıb uçanlar!
Vücuduyla sağ qalıb,
bu dünyadan köçənlər,
Sağ ikən dünyasızlar,
abırsız, həyasızlar,
Ötsələr də qarşında,
tərpənmədi qaşın da!
Qəlbinlə cavan qaldın
hətta səksən yaşında!
Sənsən əsl qəhrəman!
Həyatda varlığınla
Cəsarət, rəşadətin
bir orduya bərabər!
Sənsən ən ali insan!
Düşüncənlə, ağlınla,
Hər bir ixtiran, kəşfin,
bir dünyaya bərabər!
Elə bil ki, dünyaya
tək gəlmişdin hünərvər,

Tarix yetirməz daha
sənin kimi bir nəfər,
Ancaq sənə məxsusdur,
tarixdə böyük zəfər!
Gələcək nəsillərin
tarixə böyük səfər,
Etdikcə duyacaqdır,
kim imiş Ulu Heydər!
Oxuyub duyacaqdır,
kim imiş Ulu Heydər!
Ən böyük nağıl, dastan,
adını daşıyacaq,
Yenilməz Azərbaycan,
adınla yaşayacaq!
Ömrünün hər bir ili
düz bir əsrə dayaqdır,
Adın başımız üstə
Əbədidir, mayakdır!
Dünya Sənsən.
Sən dünya
Azərbaycan adını
Sən tanıtdın dünyaya!





## CƏNAZƏ TÖRƏNİNDƏ

Milyonlar ata gəlib,
bir atanın yasına,
Borcunu vermək üçün
millətin atasına!
Milyonlar ana gəlib,
bir atanın yasına,
Son borcunu verməyə
millətin atasına!
Göz yaşı leysan-leysan
olmuş milyon anadan,
Ahu-zar eyləməkdən
birində qalmayıb can!
Yaddan çıxıb hər kəsin
öz yaxını, doğması,
Axı həyatdan köçür
doğmaların doğması!
Cənnətin qapıları
bu gün taybatay açıq,
Bu gün ölən hər kəsin
yeri cənnət olacaq!
Gülləni öz başına
sıxıb bir cavan insan:
«Heydərsiz yaşamaqdan,
yaxşıdır yaşamasam!»
Deyib, gedib sənnətə!
Bacarmadım deməyəm:
– Əhsən, belə cürətə!

Balaca Heydər, İlham,
addımla aram-aram.
Cənazənin ardınca,
yeriyir qəm içində,
Ağrıyır, sancır mədəm,
Buludtək dolub didəm!
Qeyri-adi bir halda
Heydəri qucaqlayır,
Sanki nəvə Heydərdən,
babanı soraqlayır!
Oğlunu qucaqlayır,
təsəlli alır İlham,
Xalqının gözlərində
göyə ucalır İlham!
Onun təmkin, qüruru,
Dözüm, tabı, şüuru
Heydəri xatırladır,
Rəhbəri xatırladır.
Hər şeyin yerin bilən,
Xalqla ağlayan, gülən,
Rəhbəri xatırladır,
Heydəri Xatırladır!
Balaca Heydərin də,
gözlərinə nəm qonub...
Balaca Heydərin də
gözlərinə qəm qonub...
Ancaq o, çox təmkinli,
düşüncəli davranır.
Qışqırmır, hay-küy salmır,
Uşaq kimi ağlamır!





Amma körpə çiynində
dünyaların yükü var,
Heydərin Heydər adlı
öz nəsli var, kökü var,
O ata nəvəsidir
atasının önündə.
O, ata əvəzidir,
atasının önündə!
Bütün dolğunluqları
cəmləşdirib özündə,
Ulu Heydər ruhludur!
Heydərə əvəz kimi,
O, bu gündən doğulub,
gələcəyə səs kimi!
Yerişi, duruşu da,
gələcəkdən səs verir.
O, mənə yazmaq üçün
İlham, təb, həvəs verir!
Ürəkdolu baxdıqca,
mən bu körpə çırağa,
Düşüncəm salır yolun,
uzaqlardan uzağa!
İndii mən qəmmi çəkim,
Yoxsa sevincmi bölüm?
Birinci qəmi çəkim, -
Sonra sevinci bölüm!!..
Qəmdən keçməyən sevinc,
Buraxmaz kimsəni dinc!

## KEÇİRDİM ÖMRÜMÜ AXTARIŞDA MƏN

Keçirdim ömrümü
axtarışda mən,
Qaldım söz dalınca
qaçhaqaçda mən.
Nə söz dayanmadı,
nə mən durmadım,
Söz özü yoğruldu,
mən yoğurmadım!
Ancaq söz içində
yoğruldum özüm,
Bitməz söz mülkündə
doğuldum özüm...
Söz məni çağırdı
öz meydanına,
Dəvətsiz çıxmadım
söz meydanına!
Bitməz söz mülkündə
böyük seçimdə,
Söz özü doğuldu
mənim içimdə!
Nə sözüm tükəndi,
nə də gürühüm,
Elə bil cismimdən
çıxıbdı ruhum..
O, səni axtarır,
o, səni gəzir,





O, Sənli zamanı,
vədəni gəzir.
Keçibdi zaman da,
ötüb vədə də,
Bu şair qəlbimi
atıb dərdə də...
Dərd elə tutub ki,
dərdsiz qəlbimi,
Tükənmək bilməyir
qəlbimin qəmi!
Bu azad ölkədə,
azad zamanda,
Görüşə bilmədik
hətta bir an da..
Gözüm gözlərinə
yetişəmmədi,
Qəlbim sözlərinə
yetişəmmədi..
Əlaclı dünyada
əlacsız qaldım,
Qəlbim köz-köz oldu
ilacız qaldım!
Düşdü taleyimə
şam kimi yanmaq,
Haqlı görüşünə
gendə dayanmaq.
Kimsə qismətinə
odlara yanmaq,
Gecələr yatmamaq,
erkən oyanmaq,

Daha çatan deyil
Tanrıdan, əsla!
Kimsə yaza bilməz
bu təb, həvəslə!
Təbi, həvəsi də
mənə veribdi,
Tükənməz sözü də
mənə veribdi!
Min yazar əlinə
alsa min qələm,
Olsa da sözlərə
lap bələm-bələm,
Mən dediyim sözü
heç deyə bilməz,
Mənim yerişimi
yeriyə bilməz!
Hələ sözlərimin
çoxu daldadı,
Qəlbim söz içində
qeylü-qaldadı!
Yazar axtarıram
qarşımda dura...
Bilək axtarıram
külüngü vura!
Bənzədən söz mülkün
xarabazara,
Sözsüz ürəklərlə
düşmüş azara,
Dönmək arzusuyla
şair, yazara.





Şair libasında
söz yolçuları -
Böyük söz mülkünün
dilənçiləri
Qoy tapsın özünü
qaldığı yerdə!...
Böyük söz mülkünə
lap gırhagirdə
Keşikdə durubdu
tapanca sözlər,
Ucuz şairləri
tapınca sözlər,
Sözlə od vuracaq,
yandıracaqdı,
Ya başa salacaq,
qandıracaqdı!
Həyatın mənasın
qandıracaqdı,
Buza döndərəcək,
donduracaqdı!
İstiyə düşübdü
bəzi ağızlar,
Böyük söz mülkündə
sözsüz ağızlar
Dərə axtarırlar,
düz axtarırlar,
Ulaqtək çəməndə
söz axtarırlar!
Söz tapıb yazsaydı
çəməndə ulaq,

Dəri tapammazdı
pinəçi – dabbaq!
Mənə əmr verib
Gözəgörünməz!
Deyib daha bəsdir
dayandın dinməz!
Çıx daha meydana,
qandır bunları,
Şair libasında
bu məlunları!
Ki, söz axtaranlar
axtarsın özün,
Yoxsa qeyzə gələr,
çıxarram gözün!
Söz xırmanda bitmir,
nə də çəməndə,
Qəlbdə peyda olur
göylər güləndə,
Böyük Ağbabada –
«Maltökülləndə»,
Sürülər, naxırlar
su içib, gedib,
Bəlkə biri ordan
söz seçib, gedib!..
Söz görünən deyil
kora, nadana,
Söz deyə bilərmi
ulaq, ya «dana»?..
Uşaqlıq, gənclikdən
mənimlə birgə





Yol gəlir sözlərin
gəlmədən təngə…
Elə isnişmişik
birbirimizə,
Elə ilişmişik
birbirimizə,
Əbədi bağlıyıq,
qopmaz düyünlə!
Dürr dolu sözlərim,
hayım, küyümlə,
Bir pərən-pərənlik
salmalıyam ki,
Yazarları elə
çalmalıyam ki,
Ya sözə ilişsin,
ya sözdən qopsun.
Ya gözdən sürüşsün,
ya qəlbə hopsun.
Axır ki, saf-çürük
olsun bu meydan,
İtsin söz mülkündən
mürdəşir – şeytan!
Böyük poeziya –
müqəddəs aləm,
Belə dəhşətləri
görməmiş hələm…
Hər yerindən duran
əlində qələm,
«Meydan mənimkidir,
basılmaz kələm!»

Deyə meydan tutub
sözsüz-səbatsız!
Bu söz meydanında
bir hesabatsız,
Şair-yazar qalsa
bu qəbahətdir!
Şairlik elə bil
dəbdir, adətdir...
Şairlik dəb deyil,
haqqın səsidir!
Şairlər Allahın
yaxın kəsidir!
Arada – bərədə
yazanlar ki var,
Onlardan şair yox,
həvəskar olar!
Şair gərəkdir ki,
Haqdan dərs ala,
İnsantək yaşaya
və nəfəs ala!
Hər bir hərəkəti
nümunə, örnək,
İnsana yardımçı,
insana kömək,
Ona qayə ola,
xoş avaz ola,
İlhamı, təbiylə
Kür, Araz ola!
Şairə gərək döy
modabaz ola,





Ya özünü çəkən
ədabaz ola!...
Yürüyən sətirdə
yan başa-başa,
Görünən efirdə
min bəshabəslə,
Ucuz söz başında
bir pərvanədir,
Əlaqəsi itmiş,
təblə, həvəslə!
Axı harayacan
yol getmək olar,
Özünü itirib
tapmayan kəslə!...

## HƏYATIN BAHASINA QURDUN AZƏRBAYCANI

Həyatın bahasına
qurdun Azərbaycanı!
İkinizin uğrunda
qoyaraq mən də Canı,
Sizin birliyinizdən
yazıb yeni əsərlər,
Bu yolda qoyacağam
qalan ömrü sərasər!
Şərəfim də bu yolda,
şanım da bu yoldadı,
Necə ki sağam, ürək –
canım da bu yoldadı!
Əbədi bu yoldayam,
yolum sənin yolundur,
Yurdda kimdə qeyrət var,
hamısı sənin oğlundur!
Sənsən Azərbaycan da,
sənsən ürək də, Can da!
Yeganəsən. Sən təksən
Ürəkdə, həm Cahanda!
Unuda bilməz səni
ulu xalqın bir an da!
Ruhun İlham, Heydərdə!
Onlardakı dəyərdə!
İrsinə sığınıbdı, Ölkə:
kənd də, şəhər də!





Yaşayırsan İlhamla,
böyüyürsən Heydərlə!
Kəsmisən əlaqəsin,
xalqın qəmlə, kədərlə!
Xalqa sevinc bəxş etdin,
əbədi, sönməz, mətin!
Keçib övladlarına
sənin ölməz qeyrətin!

* * *

Əvəzində İlham var,
Xalq çəksə də həsrətin!
Əvəzində Heydər var,
Xalq çəksə də həsrətin!
Əbədiyyət özü Sən,
Xalqın görən gözü Sən,
Yenə başımız üstdə
ölməz adın – özünsən!

* * *

Azərbaycan! – Ulu Heydər!
Bir olubdur, bir olacaq!
Yazmaq üçün bu şərəfə
qəlbim Araz, Kür olcaq!
Eldar yazıb əsər-əsər
söz mülküylə bir olacaq!
Nizaminin irsində O,
əbədi bir kök salacaq!
Yazılacaq əsər-əsər,
seçiləcək, tək olacaq!

Tanrı verib
elə böyük
azar mənə,
Çata bilməz
heç bir şair,
yazar mənə!
Budur, bu mən,
bu da meydan!
Həm o taydan,
həm bu taydan,
İstəyimdir:
Azərbaycan!
İstəyim bir
Azər baycan!!
Ölməz, vahid
Azərbaycan!
Ölüm yaxud
Azərbaycan!!





## TANRI MƏNƏ SƏNİ VƏ SÖZÜ VERDİ

***Azərbaycan dünyaya
Günəş kimi doğacaqdır!***

**Heydər Əliyev**

Tanrı mənə səni
və sözü verdi,
Mən tapmadım Səni,
O, özü verdi!
Səndən yaza-yaza
yazıldım özüm,
Günəşə, ulduza
ucaldım özüm!
Sən məni ucaltdın,
yoxsa kim idim?
Yoxsa mən də adi
bir sakin idim....
Şairliyim
çıxdı üzə
Səninlə,
Sahib oldum
böyük sözə
Səninlə!
Hər gecədən
hər gündüzə
sözümlə,

Sətir, bəndlər
gətirmişəm
düzümlə!
Fəxr etsəm də,
sözüm üçün
özümlə,
Tək mən döyəm
söz söyləyən
düzümlə!
Hər yazarın
sevgisi söz,
eşqi söz,
Hər yazarın
nəğməsi söz,
nəqşi söz!
Qəlbimdəki böyük
tabla, dözümlə,
Böyük əsər verdim
xalqa sözümlə.
Şəxsiyyətin
önündə bu damladı,
Davam edir,
yol hələ İlhamladı!
Ürəkdə də İlham,
Öndə də İlham!
Ürəkdə də inam,
öndə də inam,
Yeni əsərlərim
edəcək davam!
Nə qədər ki, vardır
canımda nəfəs,





Nə söz tükənəndi,
nə təb, nə həvəs!
Sənin kəşfindəyəm
mükəmməl, səlis,
Nə söz tükənəndi,
nə qoyduğun irs!
Beş kitab yazsa da
qəlbi doymadı,
Eldar yazısına
nöqtə qoymadı!...
Haqqında min əsər
yazmağa belə,
İnamım itməzdir
qəlbdə təmələ!!...

## EPİLOQ

Götür, oxu, ey oxucum,
Budur mənim şah əsərim!
Orda yanıb sərasərim,
Keçib anım, radələrim,
Fikirlərin arasında,
Hər kəlməsi bişib mənim
Gözlərimin qorasında!
Odur mənim qəhrəmanım,
İgid nərlər arasında!
Həqiqəti necə dannım?
Kimsə yoxdur sırasında!
Dövrümüzün Xətaisi,
Əslərə çatan irsi!
Əsrimizin təmsilçisi,
Dövrümüzün təmsilçisi!
Sətir-sətir ha düzsən də,
Kitab-kitab ha yazsan da,
Tükənməzdir Heydər irsi!





*RƏYLƏR*

## MÜQƏDDƏS SEVGİ

Azərbaycan Respublikasının ümummilli lideri, dünyaşöhrətli dövlət rəhbəri, böyük qurucu, böyük yaradıcı, nadir natiq, nadir hafizə sahibi, dövlət və layihələşdirmə təfəkkürü ilə, respublikada dövlətçilik, idarəçilik fəaliyyəti ilə Azərbaycan tarixində görkəmli rəhbərlərdən və simalardan kəskin şəkildə fərqlənən Heydər Əliyevin şəxsiyyəti ətrafında yaranan «Heydər Əliyev» mövzusunun ədəbi hərəkata çevrilməsi, gündən-günə daha böyük vüsət alması respublikanın bütün ziyalı təbəqəsi kimi məni də çox sevindirir.

Öz liderini sevən, onu böyük məhəbbətlə, ürəkdən gələn böyük çağırışla tərənnüm etmək məqsədilə sənət əsərini ona həsr edən şairlər, yazıçılar, uca tribunalardan sevimli rəhbərinə səmimi ürək sözlərini bəyan edən alimlər, mədəni, içtimai-siyasi xadimlər «Heydər Əliyev» mövzusunda yaranan, yazılan, səslənən əsərləri get-gedə genişləndirirlər.

Heç də təsadüfi deyil ki, bu hərakat 40 ildən çox özünün ömrünü böyük fədakarlıqla Azərbaycan xalqının və Azərbaycan Respublikasının mədəniyyətinin, iqtisadiyyatının, kənd təsərrüfatının, elm, ədəbiyyat və incəsənətinin inkişafına, tərəqqisinə həsr edən Heydər Əliyevin gərgin dövlətçilik, idarəçilik, quruculuq, yaradıcılıq fəaliyyətinin məntiqi nəticəsidir. Öz

mənalı həyatını xalq yolunda fəda edən rəhbəri, ağsaqqalı, prezidenti xalq sevir, onun bütün çağırışlarına səs vermişdir.

Bir-neçə tarixi mərhələlərdə baş verən və tarixən formalaşan, xalqın mənəvi dayağına çevrilən bu proses xalqı təmsil edən yaradıcı qüvvələrin müraciət etdiyi «Heydər Əliyev» mövzusunun artıq ədəbi-mədəni hərəkata çevrilməsini zəruriləşdirmişdir.

Azərbaycan xalqının həyatında bu ədəbi-mədəni hərəkat öz yeniliyi ilə, həm də kütləviliyi ilə ədəbiyyat və sənət dünyamızda böyük maraq doğurmaqdadır.

Bir çox sənət, qələm dostlarım kimi bu hərəkatın öncüllərindən olan qələm və sənət dostum Eldar Əliyev də qələmə aldığı "Sönməz Günəş" poemasıyla bu elm, sənət, ədəbiyyat hərəkatına böyük cəsarət, poetik şəhamətlə qoşulduğu üçün öz xalqı, rəhbəri, respublikasına sevgi ilə yoğrulmuş poetik arzu və ümidlərilə, özünəməxsus səmimi şeir, poetik təfəkkürü ilə, qüdrətli istedadı ilə bu hərəkatın oxucu auditoriyasını sevindirmişdir.

«Heydər Əliyev» mövzusunda yazdığı iri həcmli "Sönməz Günəş" poeması ilə xalq vətənpərvərliyinin üfüqlərinin, geniş və tükənməz yaradıcılıq potetikası ilə çırpınan bir ürəyin Böyük rəhbərə olan böyük məhəbbətinin geniş imkanlarını sübut etməkdə davam edən Eldar Əliyevin (Sərtqaya) poemanın üçüncü hissəsini oxucu auditoriyasına təqdim etməsi bunun bariz nümunəsidir. Şair əsər boyu, yeri gəldikcə, dünyəvi, bəşəri mövzuda yazdığı şeirlərini də oxucuya təqdim edir. Bu kimi lirik ricətlərilə o, dünyanın qlobal məsələlərinə də müdaxilə etmək və oradan nikbin





nəticələr çıxarmaqla, poemanın ümumi süjet xəttinə orjinallıq gətirmişdir. Bu, Eldar Əliyev yaradıcılığının yüksək xüsusiyyəti olmaqla, «Sönməz Günəş» poemasının hər üç hissəsində poetik əksini tapmışdır.

Poetik axtarışlarla, poetik deyimlərlə müxtəlif şeir ölçülərində yazılan poema şair ürəyinin çırpıntıları, xalq məhəbbətinin təntənəsinin tərənnümü, xalqın bugünkü problemlərinə göstərdiyi poetik münasibətlərlə əsər bir sıra gözəl xüsusiyyətlər kəsb etmişdir və edəcəkdir!

Eldar Əliyevlə görüşlərimiz, apardığımız söhbətlər, onun özünün bu mövzuya münasibətindəki prinsipiallığı mənə imkan verir deyim ki, Eldar istəyinə nail olmaqla bərabər, bir sıra nəhəng əsərlərin müəllifi kimi şöhrət qazanacaqdır! Bu yolda mən Eldar Əliyevə uğurlar arzulayıram!

Söhrab Tahir,
*xalq şairi*



## MƏN ONA «ƏHSƏN» DEYİRƏM!

İyunun 15-i Qurtuluş günü «Kəpəz» televiziyasını izləyərkən «Sönməz Günəş» poeması ilə bağlı sənədli filmə təsadüf etdim.

Əsər dünyaşöhrətli siyasətçi Heydər Əliyevə, onun həyat və fəaliyyətinə həsr olunmuşdu.

Tanınmış ədəbiyyatşünasların, dilçi alimlərin, professorların, xalq şairlərinin, akademiklərin kitab haqqında yüksək razılıq dolu müsahibələri diqqətimi çəkməyə bilməzdi.

Xüsusilə Milli Elmlər Akademiyasının müxbir üzvi görkəmli ədəbiyyatşünas, türkoloq Nizami Cəfərovun, Bakı Dövlət Universitetinin dilçi professoru Yusif Seyidovun, xalq şairi Söhrab Tahirin və şair İlyas Tapdığın kitab haqqında dediklərinə qulaq asanda və biləndə ki, müəllif Eldar Əliyev poeziya aləminə yeni qədəm qoymuş peşəkar rabitəçidir, açığı qəribə hisslərlə üz-üzə qaldım.

Axı Heydər Əliyev haqda söz danışmaq, əsər yazmaq, hətta xırda bir məqalə – yazı yazmaq belə, böyük məsuliyyət tələb edir! O ki qaldı, poeziya Aləmi, nəzmlə verilmiş hadisələr, obrazların yaradılması məsuliyyəti.

Eldar Əliyevin qətiyyətli və arxayın danışığı bu məsuliyyətin öhdəsindən gələ biləcəyindən xəbər verirdi.

Səhər işdə muavinlərim və kafedra müdirləri ilə söhbətimiz elə bu yeni kitab – poemadan başladı.





Yoldaşlar da televiziyada maraqla izlədiklərini bildirdilər.

Prorektor Rəhim müəllim bildirdi ki, Mübariz müəllim, o mənim dostumdur, kitabı da məndə var, özü bağışlayıb.

Professor Sadıq Şükürov da onu tanıdığını, hətta kitabının birinci hissəsini ona hədiyyə etdiyini bildirdi .

Mən prorektor Rəhim müəllimin vasitəsilə onunla görüşdüm. O, "Sönməz Günəş" poemasının iki hissəsi ilə mənim görüşümə gəlmişdi.

Onun hədsiz sadəliyi elə böyük əsəri yaza biləcəyini aşkarlayan ilk və əsas təəssürat idi.

Onunla tanışlıq və söhbətimizdən həssas təbiətliliyini gördüm. Əsərin iki əvvəlki hissəsini oxuduqca isə onun yüksək istedadına bələd oldum.

Heydər Əliyev şəxsiyyətinin həyat və fəaliyyətini artıq otuz dörd ildir ki, bütün dünya ilə bir yerdə müşahidə etdiyimizdən onu tanıyan hər kəsə şəxsiyyəti bütün dolğunluğu ilə tanışdır, məlumdur. İstər-istəməz onun haqqında hər hansı şeiri, məqaləni belə oxuduqca o böyük şəxsiyyətə aid hər yeni söhbət dolğun obrazla, yaradılan obraz arasında oxucuda ixtiyarsız bir qəlbdaxili müqayisə yaradır.

Bu kitabın hər bir fəslində Heydər Əliyev obrazını şair Eldar Əliyev çox dolğunluqla yarada bilmişdir və buna görə mən ona – əhsən, deyirəm!

Özünün qeyd etdiyi kimi, vicdanının tapşırığı ilə uzun illərin uzun əzablarından keçə-keçə qəlbində yaşatdığı "Sönməz Günəş"i ilə Eldar Əliyev sönməz ilham sahibi olduğunu da sübut etmiş və etməkdədir.

Çox maraqlı epizodik poetikaya, fantastik düşüncəyə və söz düzümünə malik zehinin – qaynar bir ürəyin məhsulu bu "Sönməz Günəş"i oxuduqca bütün əsər boyu Heydər Əliyev obrazını izləmək məmnunluğu yaşadım. Eldar Əliyevin bu yolda doğrudan da yanar çıraq, şam olduğunun şahidi oldum.

Əsəri oxuduqca, dahi şəxsiyyət Heydər Əliyev haqqında danışan, yazan insanların çıxışlarını həssaslıq və qətiyyətlə izləyən, yazan qürurlu bir şair obrazı da elə bil oxucunu təqib edir, izləyir.

Eldar Əliyevin Peyğəmbər kimi tərənnüm etdiyi Heydər Əliyevə olan məhəbbəti ümumxalq məhəbbəti zəminində, mən deyərdim ki, bənzərsiz yüksəklikdədir.

Onun düşüncəsindən, qəlbinin dərinliklərindən qopara bildiyi sətirlər özü bunu deyir və sübut edir.

Bir sözlə, Heydər Əliyev şəxsiyyəti və irsinin bütün gözəlliklərini tam dolğunluğu ilə özündə əks etdirən bu əsər öz monumentallığı ilə Eldar Əliyevin özünü də poeziya tarixində əbədiləşdirəcəkdir!

Öz şah qəhramanı Heydər Əliyev və onun layiqli davamçısı İlham Əliyev haqqında gedən telemüsahibələrə, verilişlərə, qəzetlərdə gedən yazılara qədər qətiyyətlə izləməsi Eldar Əliyevin yüksək çalışqanlığından, Xalq – Heydər yolunda yorulmazlığından, öz amallarına sadiqliyindən xəbər verir.

Bu yolda ona uğurlar arzulayıram və inanıram ki bu əsər və gələcək əsərləri Eldar Əliyevi böyük şöhrət sahibi edəcəkdir.



**Mübariz Yusifov,**
filologiya elmləri doktoru,
professor.





## ARZULAR QOYNUNDA LEYSAN SƏTİRLƏR

Ziyalı ailədə, zəngin folklor qaynağı olan Ağbaba diyarında böyümüş, el aşıqlarının nağıl və dastanlarını dinləmiş Eldar Əliyevə atası Paşa müəllim, mən deyərdim ki, çox böyük romantik mənbə olmuşdur. Bunu mən Paşa müəllimlə görüşümdə olan söhbətlərimiz zamanı yəqin etdim. Ömrünün 48 ilini Azərbaycan dili və Ədəbiyyatı müəllimi kimi yeni nəslin tərbiyəsinə həsr etmiş 84 yaşlı Paşa müəllim öz şair təbiəti ilə bu gün də Eldarın ən böyük mənəvi dayağıdır.

«Sönməz Günəş» poemasının I hissəsinə yazdığı müqəddimədə Yazıçılar Birliyinin üzvü, yazıçı– publisist, dissertasiyasını Azərbaycanın xalq şairi Rəsul Rzanın yaradıcılığı mövzusunda işləmiş filologiya elmləri doktoru, professor Bağır Bağırov ətraflı və yerində şərh vermişdir.

Əsərin ikinci hissəsinə müqəddimə yazan Azərbaycanın xalq şairi Söhrab Tahir də Eldarın yüksək yaradıcılıq qabiliyyəti və yaratdığı böyük əsər haqda öz geniş şərhini vermişdir. Eyni zamanda mən özüm də əsərin şirin dili, oxunaqlılığı, dəyərliliyi haqda əsərin II hissəsində öz rəyimi yazmışam. Ancaq Eldarla uzun zəmankı tanışlığımızın bu son iki iliindəki müntəzəm münasibətlərimdəki kəşflərimdən danışmasam, yazmasam, olmaz. Çünki mən bu sənət aləmində

baş ağartmışam və mənim bu şərhlərim Eldarın oxucularına da, şer-söz vurğunu, sənətə yeni qədəm qoyan gənc nəsilə də sox şey deyəcəkdir.

Xalqın tanıdığı, sevdiyi və bütün dünyada tanınan şəxsiyyət haqqında mənzum əsər-dastan yazmaq əlbəttə asan iş deyildir, bunu digər şərhçilər kimi, tanınmış dilçi, filologiya elmlməri doktoru, professor Yusif Seyidov da əsərə verdiyi rəydə şərh edibdir. Ancaq mən Eldarla son iki Ildəki dostluğumuz zamanı onu kəşfimdən sonra bu qənaətə gəldim ki, bu çətinlik Eldar üçün deyil! Hər yeni görüşümüzə yeni fikirlə, yeni şeirlə gələn, hər yeni söhbətdən, hər yeni sözdən yayınmadan yaradıcılıq nəticələri əldə edən Eldar haqqında başqa qənaətə gəlmək mümkünsüzdür. Elə onun yüksək fitri istedadı və fenomen yaddaşı Eldarı zəngin söz ehtiyatı sahibinə çevirmişdir. Ona görə ki, bu söz ehtiyatı onu özünə inama çağırmış və çağırmaqdadır. Onun xalqın maraqları ilə üst-üstə düşən «Heydər Əliyev» mövzusunda yazıb-yaratmaq arzu və istəyi saf mənəviyyatdan qaynaqlandığı, təmənnasız olduğu üçün güclüdür, təqdirəlayiqdir! Eldar özünə inana-inana çox böyük təzyiqlərlə, haqsızlıqlarla üz-üzə qalsa da, öz arzularından bir an belə kənar yaşamamış, uzun illərlə qəlbində gəzdirə bildiyi «leysan» sətirlərini ağ vərəqlərə, oradan da «Sönməz Günəş» poemasının fəsillərinə böyük məharətlə köçürmüşdür və köçürəcəkdir!

Bu işin öhdəsindən gəlmək üçün müəllifin həvəsi, səbri, istedadı imkan verir deyim ki, Eldar Əliyev öz





prinsipiallığı, yenilməzliyi, qətiyyəti ilə şərəfli və məsuliyyətli işini ürəklə davam etdirəcək! Bu yolda istedadlı dostum, humanist və vətənpərvər Eldar Əliyevə bir daha ürəkdən minnətdarlığımı bildirir, uğurlar arzu edirəm.

Onu da qeyd etmək istəyirəm ki, iri həcmli, məsuliyyətli və böyük zəhmət tələb edən Eldar Vətən-Torpaq sevgili kiçik və iri həcmli şeirlərini, müxtəlif sənət adamlarına, qələm dostlarına ithaf etdiyi mənzum poemalarını da, redaktoru olduğum «Ağbabada izim qaldı» adlı kitabını da çapa vermişdir. Bu, Eldar Əliyev (Sərtqaya) yaradıcılığının başlanğıcı olmadığı kimi, inanıram ki, sonu da olmayacaqdır!

İlyas Tapdıq,
*AYB üzvü, şair*

## XOŞ MƏRAMIN XOŞBƏXT MƏNZİLİNDƏ

Azərbaycan xalqının böyük oğlu, dövrümüzün dahisi, həqiqi ümumxalq məhəbbəti qazanmış Heydər Əliyev haqqında çox kitablar oxumuşam və dahi şəxsiyyət haqqında yeni kitabların yazılmasının daha böyük vüsət almasının şahidiyəm. Çoxları ona öz məhəbbətini izhar etməyə çalışır, ürəyindən gələnləri demək istəyir. Şair şeiri ilə, nasir hekayə və povesti ilə, alim və jurnalist öz elmi və publisistikası ilə qəlbini açır.

Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti, dövlətçilik strategiyası, daxili və xarici siyasətinin məzmunu və əhatəsi o qədər genişdir ki, onu kitablara sığışdırmaq üçün illərlə tədqiqatlar, gərgin yaradıcı əmək lazımdır.

Heydər Əliyevin elmimiz, ədəbiyyatımız, mədəniyyətimiz sahəsindəki əməyi də ölçüyə gəlmir.

Onun ayrı-ayrı yaradıcılıq sahəsindəki fəaliyyəti haqqında çox qiymətli ədəbi-bədii, publisistik əsərlər yazılıb və belə əsərlər yazılmağında davam edir.

Heydər Əliyev dahi siyasət adamı olmaqla bərabər, əlçatmaz bir şəxsiyyətdir.

Bir dövlət xadimi, bir siyasətçi, respublikamızın rəhbəri kimi ölkənin və dünyanın siyasət aləmində





həlledici rol oynadığı dünyanın siyasətinə istiqamət vermişdir. Böyük beynəlxalq tiribunalardan onu dinləmiş, ona qulaq asırmış, onun obyektiv, məntiqli təsiredici nitqlərindən təsirlənmişlər.

Heydər Əliyev şəxsiyyəti uzun illərin kollektiv araşdırması üçün ilham mənbəyidir və olacaqdır!

Haqqında qısa rəy yazdığım bu kitabın müəllifi Eldar Əliyev də bu mənbədən mayalanmış, onun səsinə diqqət yetirmiş və qəlbinin səsi ilə «Sönməz Günəş» poemasını yazmışdır. Poemanın birinci və ikinci hissələri çap olunmuşdur. Oxucuların mütaliəsinə təqdim olunan bu hissə üçüncü hissə adlanmaqla, üçüncünün davamıdır.

Müəllif poemanın bu hissəsi ilə də məni valeh elədi. Mən əvvəlki rəyimdə də qeyd etdiyim kimi arabir ədəbi tənqidlə, ədəbiyyatşünaslıq problemləri ilə də məşğul olsam da, yazdıqlarım həvəskar səviyyəsindən yuxarı qalxmır. Aydın məsələdir ki, belə əsərlərin bədii dəyəri haqqında da mötəbər söz demək çətindir. Eldar Əliyevin «Sönməz Günəş» poemasına gəldikdə isə yüksək həvəs, istək və ürəkdən gələn sonsuz səmimiyyətlə yazılmış, onun sözlərində dövrümüzə, xalqımıza, azad ölkəmizə açıq-aydın vətəndaş münasibəti bu çətinliyi tamamilə aradan qaldırır. Müasir gəncliyin belə əhval- ruhiyyədə olması olduqca əhəmiyyətlidir. Onu da qeyd etməyi lazım bilirəm ki,

Eldar Əliyev mövzunun məsuliyyətini də başa düşür və çox çətin, lakin şərəfli bir mövzuda əsər yazır.

Layiqli arzularla yaşayıb-yaradan Eldar Əliyev arzularının ifadəsi olan, monumental «Sönməz Günəş» poeması ilə özünün də sönməz ilham sahibi olduğunu nümayiş etdirmiş, sübuta yetirmişdir.

Bu yolda Eldar Əliyevə uğurlar arzu edirəm və oxucularını əmin edirəm ki, onun yaradıcılıq potensialı bizə poemanın növbəti hissələrini də oxumaq imkanı verəcəkdir.

**Yusif Seyidov,**
*filologiya elmləri doktoru,*
*professor*





## NİZAMİ ÜSLUBU

Dərs ili təzəcə başlanmışdı.

Eldar Əliyevlə Universitetin birinci mərtəbəsində görüşdük. O, məni təbrik edəndə soruşdum:

– Nə münasibətlə?

– Yeni tədris ilinin başlaması münasibəti ilə.

– Axı mən sizi tanımadım.

O, özünü təqdim etdi və hər şey mənim nəzərimdən kino lenti kimi keçdi.

Onun bizi tanış edən Muxtar müəllimlə öz maşınında evə gətirdiyi və mənə bir kitabını bağışladığı yadıma düşdü.

Bu, sözügedən «Sönməz Günəş» poemasının birinci hisəsi idi.

15 iyun 2003-cü il tarixdə həmin kitab haqda sənədli filmə baxandan sonra mən həmin əsərin I hissəsini oxudum.

Doğrusu, ilk dəfə mənim diqqətimi o qədər cəlb etmədi. Bəlkə də Səməd Vurğundan, Rəsul Rzadan sonra elə böyük əsərlərin, poemaların şahidi olmamışıq deyə rabitəçi – idarə müdiri işləmiş, 30 il bir mahalın rabitəsi ilə başı qarışmış bir insanın birdən-birə böyük həcmli poema yazması mənə qəribə gəldi. Hansı ki, həmin əsər Heydər Əliyev kimi nəhəng bir siyasətçiyə – dahi bir insana həsr olunmuşdur.

Ancaq əsərin birinci hissəsini oxuduqca mən Eldarı tanıdım və inandım ki, o, bu əsəri davam etdirəcəkdir.

Bu gün isə o, məni təbrik edir, mənimlə maraqlanır, kitablarımdan, əsərlərimdən danışır. Beləliklə, biz mənim iş otağıma qalxdıq, xeyli söhbətləşdik. Gördüm yox, bu gənc şairin qəlbi dərin söz ehtiyatı ilə doludur.

O mənə kitabın II və III hissəsini beş gün sonra isə IV hissəsini gətirəndə mən soruşdum:

– Bura bax, sən dincəlmək-zad bilmirsən?

O isə gülə-gülə: –

«Söz ağızdan, zaman öndən itəndə,
Dönən deyil, ha çalışsan bir dəm də!
Odur ki, vaxt itirmədən yazıram,
Sözlərimi sətirlərə düzürəm
Ki, qoy qalsın məndən sonra mirastək,
Öz əlimlə qoyduğum bir əsastək!»

Söz ağzımdan çıxar-çıxmaz Eldarın misralarla cavabı onun ölçüyəgəlməz ilham sahibi olmasından xəbər verirdi.

Bir gün sonra biz təkrar görüşdük. Universitetin həyətində bir yerdə çay içib, xeyli söhbət etdik. O, mənə Nizami üslubu ilə onun irsini davam etdirdiyini, bunun Tanrı tapşırığı olduğunu, mən isə Nizaminin təkrarsızlığını qeyd etdim.

O, gülərək:

– Əlbəttə, böyük şəxsiyyətlər təkrarsızdır, ancaq bir-birinin davamçısı ola bilərlər.





Mən də Nizaminin davamçısı kimi doğuldum! – dedi.

Ancaq birinci hissədə özünün qeyd etdiyi kimi, bu istəyin onda hələ uşaqlıqdan gənclikdən olduğunu düşündükdə bu hazırcavab gənc şairlə mübahisə etmədim. O mənə kitabının III hissəsindəki söz haqqında fəsilləri oxuyub öz fikrimi bildirməyi xahiş etdi.

Mən «Sönməz Günəş» poemasının III və IV hissələrinin siqnal nüsxələrini oxuduqca elə bil Heydər Əliyevi yenidən kəşf etməyə başladım. Beləliklə, «Sönməz Günəş»in hər dörd hissəsini oxuduqda Eldar Əliyevin inadkar, dönməz, öz mövqeyində stabil və özünə qarşı tələbkarlığından ləzzət aldım.

O, qəddini pozmadan: «Hörmətli Sadıq müəllim, Nizami də, Füzuli də, Səməd Vurğun da, Rəsul Rza da bu xalqın övladlarıdır, Sadıq müəllimlə Eldar da. Biz özümüzə inanmasaq, Şah İsmayıl Xətaidən sonra bu günümüzün sevinc dünyası olan Heydər Əliyevi necə sevə bilərik?

Xətaidən 500 il sonra Heydər Əliyev Sönməz Günəş kimi doğulubsa, onu tərənnüm edə biləcək qədər istedada malik Nizami oğlu da bu xalqa lazımdır, ya yox?

Nizamidən 500 il sonra Füzuli doğulub, II beş yüz ilin poeziya aləminə liderliyini də Ulu Tanrı mənə həvalə edib. Bu sizi sevindirmir?...» –

Bu həssas şairin suallarının cavabı da özündə idi və mən onun özündən aldığım bu cavabla yazımı bitirmək istəyirəm.

Mən inanıram ki, Eldar Əliyev öz dövrünün ən güclü söz sahibi və Böyük Nizaminin davamçısı kimi böyük şöhrət qazanacaqdır!

Təkrar görüşümüzdə Eldar Əliyev məndən poemanın IV hissəsinə redaktor olmağı xahiş etdi. Mən ona etiraz etmədim.

Ancaq onu da qeyd etmək yerinə düşər ki, kitabın redaktəsinə mənim elə çox vaxtım da itmədi,

Eldar Əliyev Azərbaycan dili və qrammatikAsını yüksək səviyyədə bildiyindən, bəzi qeydlərimi nəzərə almasam, demək olar ki, kitabın redaktəyə elə də ehtiyacı yox idi.

Artıq bu gün Eldar Əliyevin istedadı mənə məlumdur və inanıram ki, onu böyük uğurlar gözləyir!

Bunu daha aydın bilmək istəyən oxuculara «Sönməz Günəş» poemasının III hissəsini, «Söz haqqında» fəslini oxumağı məsləhət görürəm.



***Sadıq Şükürov,***
*filologiya elmləri doktoru,*
*professor*





**ONUN İSTEDADINA BƏLƏDƏM**

Bəri başdan etiraf edim ki, mən nə ədəbiyyatşünas, nə yazıçı, nə də şair deyiləm. Mən aqrar təhsil və aqrar elm mütəxəsisiyəm. Lakin uzun muddət ünsiyyətdə olduğum, yaxından müşahidə etdiyim Eldar Əliyevi həmişə fəal həyat mövqeyində dayanan, regionda ictimai-siyasi və təşkilati tədbirlərdə öndə gedən ziyalı kimi tanıyıram.

Eyni zamanda Eldar Əliyevin şeirlər toplusu kitabını və «Sönməz Günəş» poemasını diqqətlə oxumuşam və istedadına bələdəm.

Müəllifin «Həyat kitabından sətirlər» əsərində doğma vətənə, müqəddəs yurd yerlərinə məhəbbət və ulu öndər Heydər Əliyevə sonsuz inam və sədaqət hissi qabarıq formada verilmişdir. Eldar Əliyevin «Sönməz Günəş» poemasında ictimai-siyasi və dövlət xadimi, fenomen şəxsiyyət olan Heydər Əliyevə sonsuz məhəbbət hisslərinin onda hələ gənclikdən baş qaldırdığı görünür. Eldar Əliyevin poemasının qəhrəmanı yalnız bir şəxsin təfəkküründə yox, ümummilli qəhrəman kimi, xalqın arzusu, inamı, güvənc yeri kimi təsvir olunur ki, bu da «Xalq — Heydər, Heydər — Xalq» şüarını poetik tamamlayır.

Poemanı oxuduqda aydın olur ki, Eldar Əliyev hələ tələbəlik illərindən başlayaraq bu günə kimi ölkə rəhbərinin əsl mənada vurğunu olub, onun fəaliyyətini izləyib, göstərişlərinin həyata keçirilməsində iştirakçı olub və fəal təbliğatçı mövqeyində durubdur.

Ümumiyyətlə, poemanın geniş oxucu kütləsinin stolüstü kitabı olacağına şübhə etmirəm və müəllifə öz yaradıcılıq fəaliyyətində uğurlar diləyirəm.

**M.İ.Cəfərov,**
*Azərbaycan Ziyallar Cəmiyyətinin keçmiş prezidenti, akademik*







## MƏHƏBBƏT ÇƏLƏNGİ

**Məhəbbət qandadır, silmək çətindir...**
*(Borsunlu Məzahir Daşqın)*

Mən Eldar Əliyevi «Həyat kitabımdan sətirlər» əsəri ilə tanıyırdım, özü ilə tanış deyildim. Bu yaxınlarda yaradıcılıq gecəmin keçirilməsi ilə əlaqədar Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının rektoru, ziyalı dostum akademik Məmmədtağı Cəfərovla görüşə getmişdim. Elə buradaca həmin əsərin müəllifi ilə şəxsən tanış oldum. Zahirən təmkinli görünən həmin şəxsdəki daxili zənginlik, müdriklik diqqətimi cəlb etdi. Məndə belə bir inam yarandı ki, dinməz-danışmaz bu insanda nəsə daxili bir yanğı var — şeirə-sənətə vurğunluq yanğısı!

Eldar Əliyevin **«Sönməz Günəş»** poemasını oxuduqdan sonra qəti qərara gəldim ki, bu sakitlik, bu mülayimlik zahiridir. Onun daxilində şeirə, sənətə atəşin bir məhəbbət var, vurğunluq və məftunluq var.

Etiraf edim ki, 188 səhifəlik poemanı birnəfəsə oxudum, yorulmadım... Məncə, əsərə diqqətin, onu birnəfəsə oxumağın iki səbəbi vardı. Birincisi, müəllif uzun müddət onu narahat edən, maraqlandıran bir mövzudan yazmağa özündə daxili ehtiyac duyub. Belə ki, öz ürək sözlərini poetik dillə ifadəyə çalışıb. İkincisi, əsər dünya şöhrətli bir İnsan, varlığını xalqın rifahı yolunda fəda etməyə hazır olan şəxsiyyət – Heydər Əliyev barədə yazılıb...

Aydın həqiqətdir ki, belə mövzunu qələmə almaq, dahi şəxsiyyət barədə yeni söz demək müəllifdən geniş dünyagörüşü, dərin bilik, hadisə və faktları olduğu kimi

geniş oxucu kütləsinə çatdırmaqdan ötrü yeni ifadə tərzi tapmaq bacarığı tələb edir. Bundan əlavə, dünya miqyasında özünə layiq nüfuz qazanmış Heydər Əliyev haqda külli miqdarda əsər yazılmışdır və sözsüz ki, bundan sonra da yazılacaqdır. Çünki bu dahi insanın həyat və fəaliyyəti o qədər şaxəli, o qədər genişdir ki, nə qədər yazılsa da, deməyə söz də var, imkan da.

Eldar Əliyevin belə mürəkkəb və əhatəli bir mövzuya girişməsi təbiidir və alqışa layiqdir. Mövzunun poetik həllindən bəhs etməyə keçməzdən əvvəl bir cəhəti ayrıca vurğulamaq istərdim. O da əsərdəki **səmimiyyətdir.** Bu səmimiyyət bütün poema boyu özünü parlaq şəkildə büruzə verməkdədir. Bunu aydın təsəvvür etməkdən ötrü müəllifin aşağıdakı deyiminə —etirafına diqqət yetirmək kifayətdir:

Hərdən düşünürəm:
— Tanrı, mən kiməm?
Yananda şam kimi
yanmaq şərəfdir!
Kimsə qarşısında
əyilə bilməm,
Onunçün dünyaya
mən gəlməmişəm.
Gəlmişəm dünyanın
dərdini çəkəm.
Onu çəkə-çəkə
ölmək şərəfdir!
Dünyanın əşrəfi,
dərdi də insan,
Dünyanın namərdi,
mərdi də insan,
Hər zaman dünyada





dərdli də insan,
İnsan dərdlərinə
yanmaq şərəfdi!
Dünyanın özünü
qanmaq şərəfdi!

Eldar Əliyevin bu misralarını oxuyarkən Sədi Şirazinin aşağıdakı müdrik deyimini xatırladım. Ölməz şair yazır:

**«Qarşındakının gözü ağrıyırsa, sənin bütün bədənin ağrımırsa, sən adam deyilsən!»...**

Erməni faşistlərinin fitnə-fəsadı nəticəsində öz ata-baba yurdundan – Ağbabadan didərgin salınan, isti ocağını tərk edən şair yaşa dolduqca həyata daha ayıq-sayıq gözlə baxmağa başlayır, didərginliyin nə demək olduğunu dərk edir, millətin, xalqın ağıllı başlara möhtac olduğunu əməlli-başlı başa düşür. Ağıllı başlar sorağında olan gənc Eldarın həyatında 1974-cü ilin payızında Əzizbəyov heykəlinin açılışındakı görüş unudulmaz tarixə çevrilir. Elə oradaca üzünü gördüyü, parlaq nitqini dinlədiyi Heydər Əliyevin surəti onun hafizəsinə həkk olunur. İllərdən bəri həsrətində olduğu İnsan barəsində söz demək arzusu gənc Eldarın qəlbində özünə yuva salır. Poemadakı bir epizod olduqca ibrətli, ibrətli olduğu qədər də yaddaqalandır, maraqlıdır. Hələ orta məktəbdə ikən Rəsul Rzanın «Lenin» poeması barədə inşa yazan, ürək sözlərini deyən məktəbli Eldar şairin məqsəd və amalını yerində duymuş, yerində hiss etmişdir. Belə ki,

«Lenin»i yazsa da
O axtarırdı,
Harada və kimi

O axtarırdı?
Əgər axtarışda
qalmışsa da O,
Lenin bu əsərə
qəhrəmandımı?
Xeyr! Deyildir şairə
qəhrəman Lenin.
Onu qəhrəmana
bənzətmiş Rəsul...

Bax, hələ məktəbli ikən Eldar belə bir həqiqəti dərk edirdi ki, ölməz xalq şairimiz Rəsul Rza Lenini əldə əsas götürərək totalitar rejim zəmanəsində öz fikir və mülahizələrini söyləmiş, ürək sözlərini demiş, xalqına, millətinə layiq qəhrəman, rəhbər sorağında olmuşdur. Şagirdin aşağı qiymət almasının səbəbi isə aşağıdakı kimi xülasə edilir:

Yazdıqların mənalıdır,
həqiqətdir,
Ancaq indi həqiqəti
söyləməksə qəbahətdir.
Bilirsənmi bunun sonu
nə dəhşətdir?!
Sənin yazın beşə layiq
olsa belə,
Mən dörd yazdım düşər deyə
sonra ələ...

Hələ gənclik illərindən zamanın acısını-şirinini dadan, həyata açıq gözlə baxan şairdə Heydər Əliyev barəsində söz demək ehtiyacı doğmuşdur. Ən ümdəsi də budur ki, beyinlərə belə nəzarət qoyulduğu bir





quruluşda şairlərin, digər sənət adamlarının düşdüyü vəziyyəti də o, bir ziyalı və vətəndaş olaraq başa düşmüş, dərk etmiş, sənətkara da, onun yaratdığı əsərə də sağlam mövqedən qiymət verməyi daha üstün tutmuşdur.

«Tarixə gərəkdir Heydər» - deyən şair, «Heydər – xalq deməkdir, Xalq isə Heydər!» tezisini bütün poema boyu müxtəlif şəkildə davam etdirir, rəhbərin varlığı, onun idealı, xalq və Vətən yolunda fədakarlığını maraqlı epizodlar, kəsərli deyimlər vasitəsilə oxucularına çatdırır.

Poemada Heydər Əliyevin mənliyi, onun bir insan və təşkilatçı olaraq həyata keçirdiyi tədbirlərin miqyası, rəhbərə el qayğısı və məhəbbət müxtəlif baş lıqlar altında konkret olaraq təsvir və tərənnüm olunur. Başlıqlar biri-birini əvəz etdikcə dünya miqyaslı və şöhrətli rəhbərin mənliyində, iş üslubunda olan yüksək keyfiyyətlər oxucuya təlqin edilir. Belə bir cəhəti də xüsusi nəzərə çatdırım ki, müəllifin bütün poema boyu səmimi olması, qəhrəmana munis münasibəti ön plandadır.

«Azaqlıqdır istəyimiz», «Sevincim düşmənə kədər payımdır», «On may – Azərbaycan günəşinin doğum günü – müqəddəs gündür», «Nənələrin nağıllarından keçən yollar», «Mənim dünyam» başlıqları altında verilən epizodlar, deyimlər Heydər Əliyevin bir insan, vətəndaş, dövlət xadimi, dünya miqyaslı siyasətçi, ümumiyyətlə, rəhbərin bütün müsbət keyfiyyətlərinin açılmasına xidmət edir. Bütün bunlar da təntənəli cümlələr, obrazlı deyimlər vasitəsilə deyil, sadə, anlaşıqlı şəkildə geniş oxucu kütləsinə çatdırılır. PoemAnın belə anlaşıqlı və təsirli çıxmasının ən mühüm səbəbi isə müəllifin qələmə aldığı insanı bütün varlığı ilə öyrənməsi, onu

əhatə edən mühiti yaşaması, nəyi və necə yazmağı bacarması, seçdiyi obyekti bütün varlığı ilə sevməsidir. Poemanın hər səhifəsində şair ürəyinin döyüntülərini eşitmək o qədər də çətin olmA-sın gərək.

Bir vacib məsələyə də toxunmaq yerinə düşərdi. Biz həmişə başımıza gələn fəlakətlərdən, düşdüyümüz çıxılmaz vəziyyətdən danışarkən kimisə günahlandırır, səbəbkarı hardasa kənarda axtarır, lənətləyirik. Amma özümüz barədə, öz qüsurlarımız, qəbahətlərimiz haqda danışmır, susur, ya da bir-iki kəlmə ilə əsas mətləbdən kənarlaşırıq. Amma etiraf etmirik ki, torpaqlarımızın itirilməsində də, qaçqın ordumuzun milyonu keçməsində də bizim günahımız var. Bu, tarixi həqiqətdir. Ümummilli birlik və əməkdaşlığın yaranmasında biz özümüz təşəbbüs göstərməli, milləti də, Azərbaycanın iqtidarlı, müxalifətli liderlərini də birliyə çağırmalıyıq. Belə bir həqiqəti birdəfəlik dərk etməliyik ki, bütün sahələrdə müxalifət ola bilər, lakin söhbət millətin, xalqın, Vətənin taleyindən gedirsə, burada müxalifətdən söhbət gedə bilməz. Bu cəbhədə hamı bir yumruq kimi birləşməli, Vətənin taleyini göz bəbəyi kimi qorumalıdır.

Poemada məhz bu hissin çox yerində deyildiyi istər-istəməz oxucunun qəlbindən xəbər verir, onu yan-yörəyə daha diqqətlə nəzər salmağa çağırır:

Başsızlıqdan bölük-bölük
bölünmüşük!
Ermənіylə savaşda da
bölük-bölük vuruşmuşuq.
Ona görə məğlub olub
qırılmışıq.
Başsızlıqdan ingilisə,
ya da rusa qulp olmuşuq.





Ona görə qulpumuzdan
tutulmuşuq, atılmışıq...

Bütün bunlar müəllifə əsas verir ki, ürəklə desin:

Yetmiş dörddən mənim dünyam olmusan...

Bir də desin ki:

Odur mənim qəhrəmanım!
Qəhrəmanlar arasında.
Həqiqəti necə danım?!
Varmı onun bir əvəzi
Dahilərin sırasında?
Dövrümüzün Xətaisi...

Poema dil sadəliyi, deyim tərzinin əlvanlığı ilə də seçilir və maraqla oxunur. Heydər Əliyev mənliyinə və şəxsiyyətinə ümumxalq məhəbbəti çox sənətkarlıqla verilir. Poemanı oxuyub kitabı kənara qoyduqdan sonra dahi şəxsiyyətin parlaq obrazı oxucu nəzərində bir daha canlanır. Bütün bunlar isə müəllifin təsvir və tərənnüm etdiyi sahəyə bələd olmasının, onu dərindən öyrənməsinin, mövzunu yaşamasının nəticəsidir.

Nəticə olaraq onu da deyim ki, mən poemanı ətraflı təhlil etmək fikrindən də uzağam. Bircə onu deyə bilərəm ki, poema uzun illərin yaşantısı, ağrısı nəticəsində hasilə gəlmişdir.

Mən əminəm ki, poema şeirsevərlər tərəfindən maraqla qarşılanacaq və həvəslə mütaliə ediləcəkdir.



Bağır BAĞIROV,
*filologiya elmləri doktoru,*
*professor*

## MÜƏLLİFİN ÖMÜRLÜYUNDƏN



Əliyev *Eldar (Sərtqaya) Paşa oğlu 02 iyul 1956-cı ildə Qərbi Azərbaycanın (indiki Ermənistan) Amasiya rayonunun Sultanabad kəndində müəllim ailəsində anadan olmuşdur. 1973-cü ildə Amasiya rayonu Təpəkənd kənd orta məktəbini, 1979-cu ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet) "Elektrotexnika" fakültəsini bitirmişdir.*

*1979-cu ilin 12 noyabrından Azərbaycan Respublikası Rabitə Nazirliyinin təyinatı ilə Daşkəsən rayonu 6 nömrəli Xətti-Texniki Sahədə mühəndis kimi fəaliyyətə başlamış, sonralar həmin sahənin rəisi, Gəncə şəhər 2 nömrəli İstismar-Texniki Rabitə Qovşağında böyük mühəndis, Gəncə Rabitə İstehsalat Birliyində "Elektrik Rabitəsi" və "Poçt Rabitəsi" şöbələrinin rəisi, Xanlar rayon Rabitə Qovşağının rəisi, Samux rayon Rabitə Qovşağının rəisi, Samux Rayon Poçtamtının rəisi kimi vəzifələrdə çalışmışdır.*

*2001-ci ildə "Həyat kitabımdan sətirlər", 2002 – 2003-cü ildə beş hissədən ibarət "Sönməz Günəş" poe-*





***ması (beş cildliyi) və "Ağbabada izim qaldı" şeir kitabları çapdan çıxmışdır. Hazırda Gəncə şəhərində yaşayır.***

***Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin Gəncə şəhəri üzrə təmsilçisidir.***

***"Yunan-Roma" güləşi üzrə idman ustasıdır.***

***Ailəlidir, üç övladı var.***

# Mündəricat

Proloq ........ 3
Tanrıdan razıyam ........ 5
Bəşər tarixində yeganə – təkdir ........ 10
Belə sevinc duymamışdım hələ mən ........ 14
Zaman özü məni qoy təftiş etsin ........ 17
«Bizim hamımızın bir vətən var! –
bu Azərbaycandır!...» (2003-cü il) ........ 22
Elə bil içimdə bir özüm də var ........ 29
Döyün ey ürəyim, döyün və tabla ........ 31
Ulu Heydərimin uğurlu yolu ........ 35
Ayağa dur! – Azərbaycan ........ 41
Seçkiyə gedirəm əlimdə qələm ........ 44
Qayıdış ........ 50
Tək ürəksən döyünən – milyonlar sinəsində ........ 69
Yüksələcəyik gün-gün, getsək bu yolla düzgün ........ 77
Ölməyibdir yaşayır, ürəklərin başında ........ 80
Əbədiyyətə gedən yolda ........ 85
Xalqımın ölməz oğlu! Böyük – ulu Heydəri ........ 87
Heydər ata Atatürk ........ 91
Qaldım üzüntülü qəmin içində ........ 94
Xalq yolunda sənsən əbədi mayak ........ 105
Böyük dastan yazmısan ürəyimin başına ........ 111
Haqqında yazmaqdan qəlbim doymadı ........ 121
Ədəbi yol sözdən keçir ........ 127
Əksin gözlərimdən itmir bir an da ........ 137
Yaşa Azərbaycan, yaşa İlhamla ........ 148
Danışan şəkillər ........ 152





Bəli, sən peyğəmbərsən ........ 159
Ən müqəddəs arzu - kama yetişdim ........ 164
Yazmalı naməm var Azərbaycana ........ 168
Mən tanrı elçisiyəm ........ 170
Balaca Heydərin də gözlərinə qəm qonub ........ 174
Yenilməz Azərbaycan, adınla yaşayacaq ........ 179
Yenilməz Azərbaycan, adınla yaşayacaq ........ 181
Keçirdim ömrümü axtarışda mən ........ 184
Həyatın bahasına qurdun Azərbaycanı ........ 192
Tanrı mənə səni və sözü verdi ........ 195
Epiloq ........ 198

***RƏYLƏR***

Müqəddəs sevgi ........ 199
Mən ona «əhsən» deyirəm! ........ 202
Arzular qoynunda leysan sətirlər ........ 205
Xoş məramın xoşbəxt mənzilində ........ 208
Nizami üslubu ........ 211
Onun istedadına bələdəm ........ 215
Məhəbbət çələngi ........ 217
Müəllifin ömürlüyündən ........ 224

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Tural Əhmədov**
*Səhifələyici:* **Sədaqət Kərimova**

Yığılmağa verilmiş **05.06.2010.**
Çapa imzalanmış **09.09.2010.**
Şərti çap vərəqi **14,25.** Sifariş **№.501**
Kağız formatı **84x108 1/16.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*



Az 2010
1510

860